Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

12
İYUL
2019-cu il
№ 122 (4020)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# KTMT-də ANTİ-ERMƏNİSTAN QANUNU... XAÇATUROV OLAYI RUSİYANI EHTİYATLILIĞA VADAR ETDİ...

■ səh. 5 ■

Bakı ilyarımdan sonra NATO - Rusiya dialoqunu bərpa etdi - Bakı görüşü dünya analitikləri üçün bir saylı məsələyə döndü... ■ səh. 8 ■

Tuskun Bakıda ərazi bütövlüyünə dəstək bəyanatı Ermənistanı şoka salıb ■ səh. 3 ■

Əvvəlki üç NATO-Rusiya yüksək hərbi görüşü konkret nəticələr vermişdi, son Bakı görüşündən gözləntilər... ■ səh. 4 ■

Azərbaycandan sonra Ermənistana da Sakit Okean Alyansında müşahidəçilik verildi... ■ səh. 5 ■

Bütün rayonlarda bağça uşaqlarına eyni rasion qidalar vermək yanlış imiş... ■ səh. 12 ■

"Neptun" mağazalarında "şuruplu bulka"? ■ səh. 14 ■

Bakıda kafe və restoranlara indi də "firma pendir" adları qoymağa başlayıblar... ■ səh. 14 ■



## AB və NATO-nun dalbadal Azərbaycanın ərazi bütövlüyünə dəstəyi Ermənistanda böyük təşviş yaradıb

■ səh. 9 ■



Fransa məhkəmələrinin antierməni qərarları, ardınca 170 min şirkətin Azərbaycana marağı... ■ səh. 3 ■

Luvrdakı Azərbaycan xalçalarında şübhəli nə var ki, erməniləri iştahlandırıb... ■ səh. 13 ■



Köçəryanın ardınca Sarkisyanın da həbs planına start verildi ■ səh. 6 ■

■ səh. 2 ■
NATO-nun ali hərbi rəhbərliyi Bakı səfərində Azərbaycanın ərazi bütövlüyünə dəstək verdi...



■ səh. 7 ■
Paşinyan hakimiyyətə gələndən ABŞ-ın bu ölkəyə münasibəti daha da pisləşib - 193 ölkədən 170-cisi...



■ səh. 7 ■
Təcavüzkar Ermənistan cilovlansaydı... Aralıq dənizindəki proseslərə görə Türkiyəyə nota verə bilməzdi...



■ səh. 10 ■
Xaricdə insan haqları ilə bağlı treninqlərdə iştirak Azərbaycan polisinin fəaliyyət istiqamətlərindən biri kimi...



■ səh. 12 ■
İnternetin sürətinə görə dünyada 6 pillə geriləmişik





## Azərbaycan XİN-dən Mnatsakanyanın məkrli mövqeyinə tutarlı cavab...

***Leyla Abdullayeva:** "Yalnız işğal olunmuş ərazilərin azad olunması hər iki icmanın hüquqları məsələsinin həllinə əlverişli şərait yarada bilər"*

**Ermənistan xarici işlər naziri Z.Mnatsakanyan ATƏT-in Slovakiyada keçirilmiş qeyri-formal nazirlər görüşündə çıxışı zamanı Dağlıq Qarabağ münaqişəsinin insanlara aid olduğunu və orada yaşayanların insan hüquqlarının müdafiə olunması məsələsini qeyd edib.**

Baki-xeber.com xəbər verir ki, bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva açıqlama verib. L.Abdullayeva bildirib ki, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində insan hüquqlarından bəhs edən Ermənistan naziri ATƏT məkanında insan hüquqları və demokratik dəyərlərin qorunması ilə bağlı söylədiklərinə həqiqətən inanırsa və bu xüsusda real işlər görmək istəyirsə, o zaman hələ də Ermənistanın silahlı qüvvələrinin hərbi işğalı altında saxlanan Dağlıq Qarabağ və yeddi ətraf rayonumuzda etnik təmizləməyə məruz qalaraq əzəli torpaqlarından, mülklərindən didərgin salınmış yüz minlərlə azərbaycanlı məcburi köçkünün fundamental insan hüquqlarının kobudcasına pozulması məsələsini gündəmə gətirməlidir: "İnsan hüquqları universal xarakter daşıyır, bölünməzdir və bu məsələdə hər hansı şəkildə ayrıseçkiliyə yol verilməməlidir. Dağlıq Qarabağın erməni icmasının insan hüquqları məsələsini qaldıran erməni naziri, bu bölgənin azərbaycanlı icmasının öz evlərində yaşamaq hüququnun kobudcasına pozulduğunu niyə dilə gətirmir? Əlbəttə, bu sualın cavabı bizə və bütün beynəlxalq ictimaiyyətə bəllidir. Bir qrup insanın hüquqi digər bir qrupun hüquqlarının pozulması hesabına təmin oluna bilməz. Yalnız Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunması və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması, münaqişənin həlli ilə əlaqədar bir sıra substantiv məsələlərin, eləcə də Dağlıq Qarabağın hər iki - azərbaycanlı və erməni icmasının sülh şəraitində birgə yaşayışı və hüquqları məsələsinin həllinə əlverişli şərait yarada bilər".

# Prezident İlham Əliyev Qafqaz xalqlarının mədəniyyətinin formalaşmasında İslam dəyərlərinin rolunu belə ifadə etdi...

**Prezident İlham Əliyev Bakıda keçirilən "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu iştirakçılarına müraciət ünvanlayıb.**



"Trend"in məlumatına görə, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu iştirakçılarına Prezident İlham Əliyevin müraciətini oxuyub.

Müraciətdə deyilir:

"Hörmətli Simpozium iştirakçıları!

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində salamlamaqdan məmnun olduğumu bildirir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Etnik-mədəni müxtəlifliyi və təbii-coğrafi zənginlikləri ilə dünyanın unikal guşələrindən olan Qafqazın son 1400 illik tarixi İslam dini ilə bağlıdır. Azərbaycanda, o cümlədən Qafqazın müxtəlif bölgələrində bu dinə məxsus çoxsaylı maddi və qeyri-maddi mədəniyyət nümunələri İslam sivilizasiyasının regiondakı dərin köklərindən xəbər verir. Bu gün Qafqazda yaşayan xalqların bir çoxunun mədəniyyətinin əsasını İslam dəyərləri təşkil edir.

İslam VII əsrin ortalarından etibarən Azərbaycanda yayılmağa başlamış və ölkəmiz İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən birinə çevrilmişdir. Xalqımız yüz illər boyu belə bir mədəni-mənəvi müstəvidə bəşəri fikir tarixinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya şöhrətli azərbaycanlı alim və mütəfəkkirlər, söz və sənət dühaları İslam mədəniyyətinin inkişafında müstəsna xidmətlər göstərmişlər.

Tarixən olduğu kimi, bu gün də Azərbaycanda islami dəyərlərin qorunmasına xüsusi əhəmiyyət verilir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 9-11 dekabr 1998-ci ildə "İslam sivilizasiyası Qafqazda" Beynəlxalq Simpoziumunun Bakıda keçirilməsi xalqımızın öz tarixi keçmişinə və milli-mənəvi dəyərlərinə bağlılığın bariz nümunəsi idi.

2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi və IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi müasir narahat dünyamıza əmin-amanlıq və həmrəylik çağırışları kimi qiymətləndirilməlidir. Bir sıra ölkələrdə islamofobiyanın vüsət aldığı hazırkı dövrdə biz insanları birliyə, bərabərliyə, sülhə və tolerantlığa dəvət edən ümumbəşəri İslam dəyərlərinin təbliği istiqamətində ardıcıl səylərimizi, eyni zamanda, mədəniyyətlərarası dialoq və əməkdaşlıq təşəbbüslərimizi bundan sonra da davam etdirəcəyik.

"İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun maraqlı və konstruktiv müzakirələr şəraitində keçəcəyinə, Azərbaycanın, ümumilikdə Qafqazın İslam sivilizasiyasının inkişafındakı tarixi yerinin və rolunun araşdırılmasına yeni töhfələr verəcəyinə əminliyimi bildirir, toplantınızın işinə uğurlar arzulayıram".

# NATO-nun ali hərbi rəhbərliyi Bakı səfərində Azərbaycanın ərazi bütövlüyünə dəstək verdi...

***Aydın Mirzəzadə:** "Bu, ermənilərin Azərbaycana yönəlik torpaq iddiasına ən yüksək zərbədir"*

**"NATO Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləyir". Bunu Bakıda işgüzar səfərdə olan NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali komandanı general Tod Volters Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovla görüşündə deyib.**

O qeyd edib ki, Alyans Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarıdır.

Bununla belə, general T.Volters Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu xüsusi qeyd edərək, ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda göstərilən peşəkarlığı yüksək qiymətləndirib.

NATO rəsmisindən bir gün əvvəl Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk analoji mövqe ortaya qoydu. D.Tusk Prezident İlham Əliyevlə Bakıda keçirilən görüşü zamanı bəyan etdi ki, Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir.

Görünən odur ki, ard-arda ən mötəbər təşkilatların təmsilçiləri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini bəyan edirlər. Düzdür, bundan əvvəl də sözügedən qurumlar Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqe sərgiləyiblər.

**Bunu Avropa Parlamentinin qəbul etdiyi qətnamələr də göstərir. Ancaq sözügedən dəstəyin yenidən ifadə olunması, o cümlədən, NATO kimi dünyada mühüm hərbi-siyasi təşkilatın bunu bəyan etməsi Azərbaycanın mövqelərinin daha da möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir.**

Maraqlıdır, bəs ekspertlər Azərbaycanın ərazi bütövlüyünə verilən ard-arda dəstəyi necə dəyərləndirirlər?



**Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadə buna bir neçə aspektdən yanaşdı.** Onun fikrincə, bu, Ermənistanın Azərbaycana yönəlik ərazi iddialarına böyük zərbədir: "Əvvəla Azərbaycan apardığı daxili və xarici siyasətlə dünyanın hörmətini qazanıb. Bu bir daha göstərir ki, ölkə Prezidenti cənab İlham Əliyev dünyada böyük siyasi nüfuza malikdir. Bu bir daha göstərdi ki, Azərbaycanda yüksək səviyyədə təhlükəsizlik təmin edilib. Ölkədə müxtəlif mötəbər tədbirləri keçirmək olar. Bunun nəticəsidir ki, həm Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk, həm də NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali komandanı Tod Volters Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini bəyan etdilər. Bu, ermənilərin Azərbaycana yönəlik torpaq iddiasına ən yüksək zərbədir. NATO səviyyəsində bunun bəyan edilməsi işğalçı Ermənistanı narahat edir.

**Onlar elə bilirdilər ki, beynəlxalq təşkilatlar zaman keçdikcə bu məsələyə elə də diqqət etməyəcəklər. Ancaq onların bu yöndə gözləntiləri alt-üst oldu. Hesab edirəm ki, Azərbaycan müstəqilliyinin növbəti dəfə yüksək səviyyədə dəyərini aldı. O baxımdan, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı verilən dəstəyi yüksək qiymətləndirirəm".**

*Vidadi ORDAHALLI*

**Son vaxtlar Azərbaycan-Fransa münasibətlərində ciddi yeniliklər, xüsusilə də yaxınlaşmalar nəzərə çarpır. Erməni diasporunun çox güclü olduğu həmin ölkədə tez-tez ölkələrimiz arasındakı münasibətlərə xələl gətirmək cəhdləri olub. Bir müddət əvvəl Fransa məhkəmələri bəzi yerli subyektlərin qondarma qurum olan "DQR"in bəzi şəhərləri ilə "qardaşlaşması" ilə bağlı çıxarılan qərarları ləğv etdi. Bunun özü münasibətlərin rəvan olduğunun göstəricisi sayıla bilər.**

*"Bununla biz həm də erməni diasporunun Fransadakı təsir imkanlarının neytrallaşdığını sübut etmiş olduq"*

# Fransa məhkəmələrinin antierməni qərarları, ardınca 170 min şirkətin Azərbaycana marağı...

## **Hatəm Cabbarlı:** *"Bu, uzunmüddətli münasibətlərin rəvan olacağına bir işarədir"*



Çünki bir müddət əvvəl biz belə bir obyektiv qərarların çıxarılmasına nail olmaqda çətinlik çəkirdik.

Artıq Fransanın mötəbər biznes dairələri də Azərbaycanla əlaqələrə önəm verir. Fransa Sahibkarlar Təşkilatı-MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziönü Azərbaycana rəsmi səfər edib. Səfər çərçivəsində ölkənin ali rəhbərliyi tərəfindən qəbul olunan Jofrua Ru de Beziönü siyasi, iqtisadi, humanitar əlaqələrin əhəmiyyətindən danışaraq, bu münasibətlərin iki ölkə arasında əməkdaşlığın daha da inkişafına xidmət etdiyini bildirib. MEDEF-in Biznes Şurasının prezidenti Fransa müəssisələrinin 170-ə yaxın nümayəndəsinin ölkəmizə səfər etdiyini bildirib, Azərbaycanda keçirdikləri görüşləri yüksək dəyərləndirib, iki ölkə arasında mövcud əməkdaşlığın yüksək səviyyədə olduğunu deyib. Enerji sektorunda əldə edilən nailiyyətlərdən danışan qonaq Fransa şirkətlərinin qeyri-neft sahəsində - informasiya texnologiyaları, innovasiyalar, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, turizm kimi istiqamətlərdə ələqələrin qurulmasında maraqlı olduqlarını diqqətə çatdırıb. Jofrua Ru de Beziö Fransa şirkətlərinin Azərbaycanda daha da fəal çalışmaları üçün ölkəmizdə bütün şəraitin mövcud olduğunu diqqətə çatdırıb. Ölkələrimiz arasında həm siyasi, həm də iqtisadi sahələrdə nəzərəçarpan yaxınlaşma nəyin əlaməti sayıla bilər?

**Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə bildirdi ki, son zamanlar Azərbaycan-Fransa iqtisadi və siyasi əlaqələrinə diqqət yetirdikdə pozitiv baxımdan ciddi dəyişikliklər nəzərə çarpır:** "Fransanın bu sahələrdə Azərbaycanla münasibətləri inkişaf etdirməsinin bir çox səbəbi var. Onlardan ən başlıcası Azərbaycanın regionun digər ölkələri ilə müqayisədə daha inkişaf etməsi, təbii sərvətləri, enerji mənbələri baxımından Avropanın enerji təhlükəsizliyində oynaya biləcəyi rolla bağlıdır. Bütün bu amillər həm Azərbaycan, həm də Fransa üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan-Fransa münasibətlərində yeni bir səhifənin açılmasında Fransanın bəzi şəhərlərinin qondrama qurumla "əməkdaşlıq sazişləri"nin məhkəmələr tərəfindən ləğv edilməsi önəmli rol oynadı. Bu, əlbəttə, Azərbaycanın xarici siyasət kursunun bir uğurudur. Biri var Azərbaycan diplomatiyası həmin "sazişlər"in qarşısını onlar imzalanan vaxt alsın, biri də var ki, onların qanunsuzluğu məhkəmə qərarı ilə təsbitini tapsın. Yəni Fransanın öz məhkəmələri "DQR"lə olan "sazişlər"i qanunsuz adlandırıb, bununla bağlı qərar çıxarıblar. Azərbaycan diplomatiyası bu faktların üzərinə hər zaman gedib. Artıq nəticə var. Bu, Fransanın vasitəçiliyi üçün də önəmlidir. Həmin ölkə Minsk Qrupunun həmsədrlərindən biridir. Arada biz Fransanın Ermənistana meyllənməsini görürdüksə, hazırda bu hal müşahidə olunmur. Artıq biz bu məsələdə bir qırılma nöqtəsinin olduğunu hiss edirik. Düşünürəm ki, Azərbaycan Fransa ilə bağlı siyasətində bundan sonra da məntiqli davranacaq.

Fransa, sadəcə, siyasi-iqtisadi sahədə deyil, eyni zamanda, hərbi-təhlükəsizlik sahəsində də Azərbaycanla əməkdaşlıqda maraqlı ola bilər. İstərdik ki, Fransa ilə bağlı əldə etdiyimiz bu müsbət nəticəni biz digər Avropa ölkələri ilə bağlı təkrarlaya bilək. Bu cür nailiyyətlər bizim mövqeyimizi daha da gücləndirir. Göründüyü kimi, böyük biznes dairələrinin də Azərbaycanla maraqlanması təsadüfi deyil. Bu, uzunmüddətli münasibətlərin rəvan olacağına bir işarədir. Bununla biz həm də erməni diasporunun Fransadakı təsir imkanlarının neytrallaşdığını sübut etmiş olduq".

***Məhəmmədəli QƏRİBLİ***

**Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun Azərbaycanda verdiyi bəyanat Ermənistanı bərk narahat etməyə başlayıb. Qeyd edək ki, Tusk birmənalı şəkildə bildirib ki, Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir.**

# Tuskun Bakıda ərazi bütövlüyünə dəstək bəyanatı Ermənistanı şoka salıb

## **Nəzakət Məmmədova:** *"AB-nin bu bəyanatı regionumuzda gərgin proseslər fonunda mühüm sülhməramlı əhəmiyyət daşıyır"*



Artıq Ermənistandakı siyasilər həmin bəyanatı şərh etməyə başlayıblar. Hətta qondarma qurumun bəzi "rəsmiləri" də bu məsələyə reaksiya veriblər. Qondarma qurumun "mətbuat katibi" David Babayan qeyd edib ki, Tuskun Bakıda səsləndirdiyi fikirləri İrəvanda da səsləndirməsi ciddi narahatlıq yaradır. Qondarma "mətbuat katibi" hətta söhbətin hansı ərazi bütövlüyündən getdiyinə də ritorik sualla yanaşıb. Ermənilərin Tuskun məlum bəyanatı ilə bağlı bu şəkildə əndişəyə düşmələrinin səbəbi nədir?

**Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Avropa Birliyi ilə Azərbaycan arasında Brüsseldə paraflanmış və imzalanması nəzərdə tutulan sazişdə Birliyin Azərbaycanın ərazi bütövlüyünə münasibəti məsələsi ən vacib, ən çox müzakirə olunan müddəadır:** "Bu məsələ həm Ermənistan-AB Tərəfdaşlıq sazişinin imzalanması ərəfəsində, həm də müvafiq olaraq Azərbaycan hakimiyyəti ilə AB rəsmləri arasında, eyni zamanda, Azərbaycanın bəzi müxalifət qüvvələri arasında sazişlə bağlı aparılan əsas müzakirə mövzularından biri olub. Lakin bütün bu mübahisə və müzakirələrə İlham Əliyevin və Donald Tuskun bəyanatlarında tam şəffaflıq gətirildi. Prezident Əliyevin səfərlə bağlı dediyi "Ötən il Avropa Komissiyası ilə Azərbaycan arasında Tərəfdaşlıq prioritetləri sənədi qəbul olundu. Bu, çox mühüm sənəddir. Burada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunur" fikirləri bu inamı artırdı. Donald Tuskun regiona səfəri zamanı bəyan etdiyi ən mühüm fikir Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün təmsil etdiyi təşkilat tərəfindən tanınmasını xüsusi vurğulaması oldu. Bu, bütün anti-Azərbaycan qüvvələrin, o cümlədən, erməni lobbisinin Avropa İttifaqı Şurasının Prezidenti Tuskun bölgəyə səfəri ətrafında spekulyasiya manevrlərinin qarşısını almış oldu və AB-nin Azərbaycanın ərazi bütövlüyünü tanımasının növbəti ifadəsi sayıldı".

Politoloqun sözlərinə görə, artıq tamamilə aydındır ki, AB və Azərbaycan arasında qarşıdakı dövrdə imzalanması gözlənilən Tərəfdaşlıq sazişində ölkəmizin ərazi bütövlüyünə dəstək müddəası mütləq şəkildə ehtiva ediləcək: "AB rəsmisinin regiona səfəri çərçivəsində həm də ATƏT-in Minsk Qrupu həmsədrlərinə münaqişənin həllinin Helsinki Yekun Aktı prinsipləri əsasında sürətləndirilməsi, xalqların sülhə hazırlanmasının təşviq edilməsi AB-nin regionda aparıcı gücə çevrilmək planlarının təzahürüdür. Avropa İttifaqı Şurası Prezidentinin bu bəyanatlarının bir sıra səbəbləri ola bilər. Regionda İran-ABŞ münasibətləri gərginləşib. AB İranın şimal sərhədlərinin təhlükəsizliyini etibarlı şəkildə təmin etmək istəyir. Ermənistan AB üçün artıq etibarlı tərəfdaş deyil, o, ABŞ və Rusiyanın girdabında çabalayan zəif bənddir. Dünya siyasətində bu cür dövlətlər "failed states" adlanır və qonşulara təhdid mənbəyi kimi görülür. Vaşinqton görüşündən sonra AB Qarabağ məsələsində ABŞ-ın təşəbbüsü ələ almaq cəhdlərindən narahat olaraq daha da fəallaşıb. Lakin aydındır ki, əvvəlki yanaşma, ikili standartlarla münaqişəni həll etmək olmaz. Konkret, ədalətli mövqe ortaya qoyulmalıdır. Lakin bu, təbii ki, münaqişənin həllində deyil, uzanmasında maraqlı olan Ermənistanı narahat edir.

*"Bu, Ermənistanın işğalçılıq siyasətinə böyük diplomatik zərbədir"*

Təbii ki, Çinlə meqalayihələr həyata keçirən Avropa "Şərq-Qərb", "Şimal-Cənub" layihələrinin qovuşduğu tək ölkə olan Azərbaycanla münasibətə xüsusi önəm verir və Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həlli regionda sülhə zəmin yaradardı. AB-nin bu bəyanatı regionumuzda gərgin proseslər fonunda mühüm sülhməramlı əhəmiyyət daşıyır və Ermənistanın işğalçılıq siyasətinə böyük diplomatik zərbədir. Ermənistanın narahatlığı bu məqamlarla bağlıdır".

***Məhəmmədəli QƏRİBLİ***

**Ümumilikdə, son illərdə NATO hərbi komandanlığı və Rusiya yüksək rütbəli hərbçilərinin görüşü üçün məhz Bakının seçilməsi artıq bir ənənə halını alıb. Rusiya və NATO generallarının mütəmadi olaraq Bakıda görüşüb fikir mübadiləsi aparması iki qütb arasında vacib dialoq mühiti formalaşdırır və gərginliyi daha çox artırmamağa xidmət edir.**

# Əvvəlki üç NATO-Rusiya yüksək hərbi görüşü konkret nəticələr vermişdi, son Bakı görüşündən gözləntilər...



Bu baxımdan, Bakıdakı dialoqun əhəmiyyəti böyükdür. Rusiya və NATO generallarının Bakıda mütəmadi görüşlərinin keçirilməsi Azərbaycanın bölgədə artan rolunu bir daha ortaya qoyur.

İndiyə qədər bir neçə belə görüş olub. Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun və NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali komandanı Tod Uoltersin Bakıya sonuncu işgüzar səfərləri də belə deməyə ciddi əsas verir. Generallar iyulun 10-da Prezident İlham Əliyevin qəbulunda olublar, Azərbaycanın hərbi-siyasi rəhbərliyi ilə danışıqlar aparıblar. Daha sonra V.Gerasimov və T.Uolters arasında görüş olub. Göründüyü kimi dünyanın qüdrətli iki süpergücü yenidən Bakıya etibar edib.

Bu, Rusiya və NATO rəsmilərinin Azərbaycan paytaxtında ilk görüşü deyil. Alyansa üzv dövlətin təmsilçisi ilə Rusiyanın hərbi rəsmisi arasında ilk görüş 2017-ci ilin fevral ayında olub. Onda Valeri Gerasimov ABŞ Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Cozef Danfordla görüşmüşdü. Həmin il sentyabrın 7-də Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi NATO Hərbi Komitəsinin sədri Petr Pavellə Bakıda görüş keçirib. 2018-ci il aprelin 19-da Valeri Gerasimov Azərbaycan paytaxtında NATO-nun Avropadakı Müttəfiq Qüvvələri Komandanlığının Baş komandanı Kertis Skaparotti ilə görüşüb. Ötən görüşlərlə bağlı yayılan məlumatlara görə, tərəflər mövcud vəziyyətə dair məsələləri müzakirə ediblər. Həmin görüşlərdə hərbi rabitə xətlərinin dəstəklənməsinə qarşılıqlı marağın olduğu vurğulanıb. Keçmiş görüşlərdən birində Valeri Gerasimov NATO-nun Rusiya sərhədləri yaxınlığında mövcudluğunun artmasını qeyd edərək, bu istiqamətdə gərginliyin azalması üçün şəraitin yaradılmasını diqqətə çatdırıb.

XXI əsrin son 4 ili NATO-Rusiya münasibətlərində gərgin və böhranlı dövr kimi xarakterizə edilir. Belə görüşlər üçün Bakının seçilməsi Azərbaycanın regionda həm hərbi, həm siyasi, həm də coğrafi mövqeyindən, o cümlədən, hər iki güc mərkəzi ilə normal münasibətlərə malik olmasından irəli gəlir. Yüksək rütbəli generalların, Baş Qərargah rəislərinin Bakıda mütəmadi görüş keçirmələri Azərbaycanın regional dövlət kimi statusunu artırır. Sülh və dialoq məkanı kimi növbəti dəfə Bakının seçilməsi Azərbaycanın beynəlxalq miqyasda rolunu və nüfuzunu daha da artıran amildir. Azərbaycan nə NATO-nun, nə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Amma ABŞ, Avropa və Rusiya ilə çox yaxşı münasibətləri olan, onların hörmət bəslədiyi ölkədir.

Azərbaycan təkcə yerləşdiyi regionda deyil, həm də daha geniş miqyasda sabitləşdirici rol oynayır. Ölkəmiz həm də Şərqlə Qərb arasında körpü rolunu oynayır. Sonda bir amilə özəlliklə diqqət yetirmək istərdik, Bakının görüş yeri kimi seçilməsinin özü birbaşa Azərbaycan rəhbərliyinin, cənab Prezidentin və onun komandasının istər NATO, istərsə də Rusiya ilə seçdiyi əməkdaşlıq kursu onun həm NATO ilə əlaqələrini gücləndirir, perspektivli olmasını əsaslandırır, bu da düşünülmüş addımlar sayəsində regionun böyük dövlətlərini əsla qıcıqlandırmır. Bu özəlliyinə görə Azərbaycan-NATO münasibətləri NATO-Ermənistan və NATO-Gürcüstan münasibətlərindən keyfiyyətcə fərqlənir ki, bu da Bakıda keçirilən görüşlərin ənənə halını almasına şərait yaradır.

Bakıda tərəflər arasında baş tutan bundan əvvəki görüşlərin analizi və onlardan sonra verilən bəyanatlar göstərir ki, tərəflər hər zaman belə görüşlərin nəticəsindən razı qalıblar. Xüsusilə də dünyanın qaynar nöqtələrində sabitliyin yaradılması və gərginliyin aşağı salınması istiqamətində əldə olunan razılıqlar dünyanın ümumi təhlükəsizliyi üçün böyük əhəmiyyət daşıyıb. Yəni Bakı qlobal təhlükəsizliyin təmin olunmasında uğurlu bir vasitəçilik etmiş olub. Məlumdur ki, görüşlər nəticəsiz olsaydı, yenidən uğurlu məkan kimi Bakı seçilməzdi. Azərbaycan bir çox sahədə beynəlxalq əməkdaşlıq və dialoq platforması kimi özünü təsdiqləyib və artıq belə görüşlərin Bakıda keçirilməsi təəccüb doğurmur. Şübhəsiz ki, Bakının növbəti dəfə qlobal güc mərkəzlərinin hərbi rəhbərliyinin görüşü üçün məkan kimi seçilməsinin başqa səbəbləri də var.

Bu, Azərbaycanın həm coğrafi mövqeyinə, həm də dövlətimizin yürütdüyü siyasətin prioritetlərinə görə Şərqlə Qərb arasında körpü rolunu oynamasıdır. Azərbaycan dövlətinin təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji və nəqliyyat dəhlizləri layihələri ölkəmizin bu statusunu daha da möhkəmləndirib. Belə mühüm görüşlərin Bakıda keçirilməsinin əsas səbəblərindən biri Azərbaycan liderinin şəxsi nüfuzu, dövlətimizin regional və qlobal proseslərdə aktiv rol alması ilə bağlıdır. Digər tərəfdən, Azərbaycanın həm Rusiya, həm də NATO ilə normal əməkdaşlıq münasibətləri var. Ölkəmiz beynəlxalq sülhyaratma missiyalarında fəal iştirak edir və eyni zamanda, heç bir hərbi-siyasi blokun üzvlüyünə can atmır. Əksər ekspertlər hesab edirlər ki, bu görüşlərdə böyük nəticə əldə ediləcəyini gözləməyə dəyməz.

**Çünki son illərdə NATO ilə Rusiya arasındakı münasibətlərdə soyuqluq artır. Bundan başqa, ABŞ-ın öz raketlərini Avropada yerləşdirməsi və hər iki ölkənin orta və qısamənzilli raketlərin ləğvinə dair sazişdən çıxması bölgədə gərginlik atmosferini artırıb. Bu problemlər yalnız bir görüş və bir müzakirə ilə həll oluna bilməz. Buna baxmayaraq, Rusiya və NATO generallarının mütəmadi olaraq Bakıda görüşüb fikir mübadiləsi aparması iki qütb arasında vacib dialoq mühiti formalaşdırır və gərginliyi daha çox artırmamağa xidmət edir. Bu baxımdan Bakıdakı dialoqun əhəmiyyəti böyükdür.**

*Məhəmmədəli QƏRİBLİ*

# KTMT-də anti-Ermənistan qanunu... Xaçaturov olayı Rusiyanı ehtiyatlılığa vadar etdi...

**Rusiya Prezidenti Vladimir Putin KTMT-də müşahidəçi statusu və təşkilatda təmsil olunan ölkələrin səlahiyyətlərinin aydınlaşdırılması haqqında qanun layihələri paketini təsdiq olunmaq üçün Dövlət Dumasına təqdim edib. Müvafiq sənədin əsaslandırılmasında KTMT-nin "üzv ölkələrinin nümayəndələri" anlayışı aydınlaşdırılır.**



## *Daşdəmir Əliyev: "Rusiyanı KTMT-nin əsasnaməsinə dəyişikliklər etməyə vadar edən məhz Ermənistan faktoru olub"*

KTMT-də səlahiyyətli nümayəndə anlayışı əvəzinə, daimi və səlahiyyətli nümayəndə anlayışı daxil edilir. Baş katibin müavini vəzifələri və onların anlayışı müəyyən olunur. Bu təlimatla, həmçinin, güzəştlər və toxunulmazlıqlar yalnız baş katib və onun ailəsi üçün deyil, onun müavinləri və ailə üzvləri üçün də tətbiq olunur. Burada 1961-ci il aprelin 18-də diplomatik münasibətlər haqqında Vyana Konvensiyasının əsas götürüldüyü bildirilib. Üçüncü təlimatda isə KTMT-nin "müşahidəçi" və "tərəfdaş" statusları təşkilat üzvü olmayan, lakin onun məqsəd və problemlərini bölüşən ölkələr və beynəlxalq təşkilatlar üçün müəyyən edilməsini nəzərdə tutur. Maraqlıdır ki, təsdiq olunmağa təqdim edilən 2002-ci il oktyabrın 7-də KTMT-nin hüquqi statusu haqqında razılaşmada dəyişikliklər edilməsi haqqında ikinci və üçüncü təlimatlar 2018-ci il noyabrın 8-də Astanada imzalanıb. Başqa sözlə, Ermənistanın Astanadakı müzakirələrdə iştirak etdiyi və öz razılığını verdiyi məlum olur.

Aydındır ki, KTMT-də əsasnamə dəyişiklikləri Moskvanın təşəbbüsü ilə həyata keçirilir. Və sual yaranır, bu dəyişikliklər "inqilabçı" Ermənistanı cəzalandırmaq, yoxsa daha qlobal məqsəd daşıyır?

**Hərbi məsələlər üzrə ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, belə yeniliklərin təklif olunması sırf Ermənistanla bağlı yaşanan hadisədən sonra ortaya çıxıb:** "Heç kimə sirr deyil ki, KTMT Rusiyanın patronajlığı altında yaradılıb. Yəni orada bütün ölkələr dolayısı ilə Rusiyanın iradəsi ilə razılaşır. İndiyə qədər KTMT-də hər şey rəvan gedirdi. Qurumda təmsil olunan ölkələr arasında hər hansı bir qarşıdurma və ya narazılıq yaşanmayıb. Yalnız Paşinyan hakimiyyətə gələndən sonra belə hallar nəzərə çarpdı. Paşinyan hakimiyyəti KTMT-nin baş katibi postunu tutan erməni general Xaçaturovu həbs etdi. Bununla da qurumun nüfuzuna ciddi ziyan vurdu. Faktiki olaraq sübut etmək istədi ki, KTMT-ni cinayətkarlar idarə edir. Məhz həmin hadisədən sonra qurum daxilində ziddiyyətlər baş qaldırdı. Daha doğrusu, bütün ölkələr Ermənistana yerini göstərməyə başladı. Çox maraqlı mənzərə üzə çıxdı. Məlum oldu ki, Ermənistanla qurumdakı ölkələrun müttəfiqliyi tam formal xarakter daşıyırmış. Ermənistanın üzərinə həmin ölkələr tərəfindən açıq məzmunlu hücumlar oldu. Bu təzyiqlərdən sonra Paşinyan Xaçaturovu həbsdən azad etdi. Ancaq nə qədər çalışsa da, KTMT-dəki baş katib postunu bərpa edə bilmədi. Göründüyü kimi, təklif olunan dəyişikliklərdə KTMT-nin baş katibinin toxunulmazlığına, üzv və müşahidəçilərin hüquqlarına geniş yer ayrılıb. KTMT-nin baş katibi ilə bağlı problemi Ermənistan yaradıb. Məhz həmin olay Rusiyanı vadar edir ki, əsasnaməyə belə müddəaları əlavə etsin. Bundan əlavə, müşahidəçilik statusuna da etiraz edən Ermənistan olub. Çünki bir müddət əvvəl qurumda Azərbaycan və Türkiyənin də müşahidəçi statusda təmsil oluna biləcəyinə dair fikirlər səsləndi, müxtəlif ehtimallar irəli sürüldü.

**Buna da ən ciddi etirazı Ermənistan etdi. Bütün bu sadalananlar onu deməyə əsas verir ki, Rusiyanı KTMT-nin əsasnaməsinə dəyişikliklər etməyə vadar edən məhz Ermənistan faktoru olub".**

*Məhəmmədəli QƏRİBLİ*

# Azərbaycandan sonra Ermənistana da Sakit Okean Alyansında müşahidəçilik verildi...

**Azərbaycan 2019-cu ilin 10 mayında Sakit Okean Alyansının (Pacific Alliance) Meksikanın Mexiko şəhərində keçirilən Nazirlər Şurasının növbəti görüşündə müşahidəçi statusu alıb.**




## *Əli Orucov: "Düşünmürəm ki, Ermənistanın SOA-da müşahidəçi statusu alması münaqişənin həllinə hansısa müsbət təsir göstərsin"*

Bu arada Sakit Okean Alyansının (SOA) Perunun paytaxtı Limada keçirilən 14-cü zirvə görüşündə Ermənistana da müşahidəçi statusu verilib. Belə ki, iyulun 6-da Limada keçirilən görüşdə müşahidəçi ölkə statusu alıb.

Qeyd edək ki, 2011-ci ildə Meksika, Kolumbiya, Peru və Çili tərəfindən təsis edilmiş SOA-da Avropa İttifaqının və Şimali Amerikanın aparıcı ölkələri daxil olmaqla, 59 ölkə müşahidəçi üzv statusuna malikdir. Qrup ölkələrinin toplam ümumdaxili məhsulu dünya iqtisadiyyatı siyahısında altıncı yerə malikdir.

O da məlumdur ki, Azərbaycanın göstərdiyi səylərə baxmayaraq, Dağlıq Qarabağ münaqişəsi indiyə qədər həllini tapmayıb. Münaqişənin həllinin uzanmasının başlıca səbəblərindən biri işğalçı Ermənistana lazımi təzyiqlər göstərilməməsidir. Bu səbəbdən Ermənistan hər vəchlə mövcud status-kvonun davam etdirilməsinə çalışır.

Bütün bunların fonunda maraqlıdır, Ermənistanın Sakit Okean Alyansında müşahidəçi statusu alması münaqişənin həllinə hər hansı müsbət təsir edə bilərmi?

**Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucov bunu istisna etdi.** Onun fikrincə, bu o qədər də real deyil: "Düşünmürəm ki, Ermənistanın Sakit Okean Alyansında müşahidəçi statusu alması münaqişənin həllinə hansısa müsbət təsir göstərsin. Azərbaycan lap Avrasiya İqtisadi İttifaqında təmsil olunsa belə, Ermənistan kompromislərə getməyəcək. Çünki onların məqsədi işğalı davam etdirməkdir. Ermənistanın məqsədi de-fakto işğal etdiyi Azərbaycan ərazilərini de-yure öz xeyrinə rəsmiləşdirməkdir. Beynəlxalq birliyin də təcavüzkarı cəzalandırmaq niyyəti yoxdur. Ona görə də biz sadəlövh olmamalıyıq. O mənada ki, Ermənistanın SOA-da təmsil olunması nəyisə dəyişəcək. Reallıq ondan ibarətdir ki, Ermənistanın əvvəlki hakimiyyəti kimi, hazırkı Paşinyan iqtidarı da kompromislərə meylli deyil. Münaqişənin həlli ilə bağlı çağırışlara saymazyana münasibət bəsləyir. Münaqişənin həlli o zaman mümkündür ki, beynəlxalq birlik Ermənistanı təcavüzə son qoymağa məcbur etsin. Neçə ildir biz bunu görmürük. Belə olan halda, ümid qalır ancaq Azərbaycan Ordusuna. Yəni Ermənistanla nəticəsiz danışıqlara son qoyulmalı və torpaqların azad edilməsi ilə bağlı hərbi əməliyyatlara start verilməlidir. Ən azından, Ermənistana hərbi təzyiqlər artırılmalıdır".

*Vidadi ORDAHALLI*

**Ermənistanda "Qarabağ klanı" ilə mövcud hakimiyyət arasında çəkişmələrin daha da şiddətlənməsi müşahidə olunur və belə görünür ik, birincilər Nikol Paşinyan iqtidarından revanş almaqda israrlıdır. Paşinyan isə, öz növbəsində, "Qarabağ klanı"nın əsas təmsilçilərini hüquqi müstəvidə sıradan çıxarmaqda davam edir.**

# Köçəryanın ardınca Sarkisyanın da həbs planına start verildi

Sabiq prezident Robert Köçəryanın həbsindən sonra bu dəfə diqqət "Qarabağ klanı"nın digər əsas təmsilçisi Serj Sarkisyan üzərində cəmləşməkdədir. Ermənistanın "Joxovurd" nəşri yazır ki, Sarkisyan öncə 2016-cı ilin aprelində Dağlıq Qarabağda baş verənlər barədə məlumat verməsi üçün parlamentə dəvət olunacaq. Daha sonra onun günahkar bilinərək məhkəmə istintaqına cəlb edilməsi və bununla da həbsə atılması gözlənir. Keçmiş müdafiə naziri Seyran Ohanyanı da eyni aqibət gözləyir.

Yaranmış vəziyyətdə "Qarabağ klanı" Rusiya və digər ölkələrdən dəstək almaqla Paşinyanın onlara qarşı gedişlərini neytrallaşdırmaq istəyir. Elə bundan irəli gəlir ki, Robert Köçəryanın tərəfdarları Avropa İttifaqı Şurasının rəhbəri Donald Tuskun bu ölkəyə səfər etdiyi gün İrəvanda aksiya keçiriblər. Köçəryanın tərəfdarları Donald Tusk və Nikol Paşinyanın mətbuat konfransı keçirdikləri hökumət binasına yaxınlaşmağa cəhd ediblər. Lakin polis etirazçıların qarşısını alıb. Ermənistanın sabiq prezidentinin vəkili Ayk Alumyan isə bildirib ki, Robert Köçəryanın oğlu Sedrak Köçəryana atası ilə görüşməyə imkan verilmir: "Hazırda Köçəryanın yaxınlarına onunla görüşməyə imkan verilmir. Məsələn, onun oğlu Sedrak Köçəryana atasına baş çəkməyə icazə verməndilər". O əlavə edib ki, bu problemi məhkəmə vasitəsilə həll edəcəklər və lazım olsa, beynəlxalq ictimaiyyətin də diqqətini buna cəlb edəcəklər. Vəkil qeyd edib ki, Köçəryanı ziyarətlə bağlı problemlər hələ ilin əvvəlindən başlayıb. Köçəryanın qohumlarına yeni ilin bayram günlərində onu ziyarət etməyə imkan verilməyib. Onun sözlərinə görə, bütün bunlar ölkədə diktatura idarəçiliyinin nəticəsidir. Köçəryan əsas etibarı ilə "1 mart" işinə görə ittiham olunur. Qeyd edək ki, bir neçə gün öncə Köçəryan bəyanatla çıxış edərək, Nikol Paşinyanın 2008-ci ilin martında İrəvanda baş verən kütləvi iğtişaşlara görə birbaşa məsuliyyət daşıdığını bildirmişdi: "Ermənistanın hazırkı baş naziri 2008-ci ilin 1 martındakı kütləvi iğtişaşlara görə birbaşa məsuliyyət daşıyır. Onun təsəvvüründə günahkar mənəm".



Xatırladaq ki, iyunun 25-i Ermənistanın Apelyasiya Məhkəməsi Köçəryanın həbsdən azadlığa buraxılması haqqında qərarı ləğv edərək, onun həbsi barədə qərar çıxarıb. Hazırda Seyran Ohanyan, müdafiə nazirinin keçmiş müavini, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının keçmiş katibi general Yuri Xaçaturov və Ermənistanın baş nazirinin keçmiş müavini Armen Gevorkyanın da məhkəməsi gedir. Onların da tezliklə həbsə atılması gözlənir. Həmin şəxslər konstitusiya quruluşunu devirmək və külli miqdarda rüşvət almaq, qanunsuz yolla əldə edilən vəsaitləri leqallaşdırmağa görə ittiham edilirlər. Yuxarıda qeyd olunduğu kimi, onların sırasına Serj Sarksiyanın da qatılması gözlənir.

Erməni politoloq Hayk Martirosyan Ermənistanda bu fonda yaranmış böhranlı vəziyyətlə bağlı danışarkən maraqlı məqamlara toxunub. Onun sözlərinə görə, baş verən proseslər onu göstərir ki, yaxınlarda Ermənistanda məhz saray çevrilişi olacaq: "Siyasi səhnədən keçmiş rejimi və onun qalıqlarını uzaqlaşdırmaq üçün kəskin fəaliyyət göstərməklə prosesləri başqa istiqamətdə aparmaqdan ötrü bütün imkanlara malik olan hakimiyyət öz funksiyasını yerinə yetirməyib. Hazırda köhnə rejim yeni simalar, yeni qüvvələr, yeni güc və dəstəklə - o cümlədən, yalnız daxildə deyil - hərtərəfli mübarizəyə qoşulub. Bu da məntiqə uyğundur. Sülh şəraitində keçmiş rejim saray çevrilişi istiqamətində fəaliyyət göstərir. Bu ssenari ətrafında mövcud hakimiyyət daxilindən yalnız daxili deyil, bir sıra xarici güclərlə də həvəslə əməkdaşlıq edəcək insanlar tapılacaq. Belə olan halda Paşinyanı dəstəkləyənlər ordusunun sıfıra düşməsindən parlament çevrilişi istisna olunmur. Məhz "Mənim Addımım" fraksiyasının müxtəlif qolları və parlamentin digər partiyaları tərəfindən saray çevrilişi olacaq". O qeyd edib ki, Paşinyan xəyanətkar axtararkən güzgüyə baxsın, bəlkə ona daha tez qovuşdu: "Belə olan halda indiki iqtidar hakimiyyətdə çox qala bilməz. Keçmiş siyasi xadimlərin çoxdan siyasi səhnədən uzaqlaşdırmalı və türmələrdə cəzaların çəkməli olduqları halda artıq siyasi amilə çevrilmələri biabırçılıqdır. Bu, inqilab liderləri tərəfindən xalq inqilabına xəyanət deməkdir. Paşinyan ölkədə itin yiyəsini tanımadığı bir vəziyyət yaradıb". Martirosyan Paşinyanı heç nəyə yaramayan rəhbər adlandırıb.

Ermənistan daxilində olanlarla yanaşı, "Qarabağ klanı" ilə mövcud hakimiyyət arasında çəkişmələrin Azərbaycanın işğal edilmiş ərazilərində də şiddətlənməsi müşahidə olunur. Ermənistanda nəşr edilən "Past" qəzeti yazır ki, tərəflər əvvəlki qaydada separatçı rejimin rəhbəri vəzifəsinə öz adamlarını gətirməyə çalışır. Qəzet yazır ki, bu durumda Dağlıq Qarabağın keçmiş "müdafiə naziri" general Samvel Babayanın Azərbaycanın işğal altındakı ərazilərində hakimiyyətə gəlmək üçün apardığı fəaliyyət vəziyyəti daha da qarışdıra bilər: "Paşinyan Samvel Babayana qarşıdır və onun Qarabağdakı rejimin rəhbəri olmasını istəmir. Digər tərəfdən, Babayan gələn il keçiriləcək "prezident seçkilərində" namizədliyini irəli sürə bilməz, çünki Qarabağdakı rejimin indiki "konstitusiyası" buna imkan vermir. Babayan "Dağlıq Qarabağ vətəndaşı" deyil.

Lakin o, tərəfdarlarını toplayaraq "konstitusiyanı" dəyişdirməyə çalışır, imza toplayır. Hazırda Babayan 20 minə yaxın imza toplayıb. Dağlıq Qarabağın "təhlükəsizlik xidməti" isə ona eyhamla bu günlərdə belə bir xəbərdarlıqla çıxış edib ki, hakimiyyət "antikonstitusion addımların, qanunsuzluğun, sabitliyi pozmaq cəhdlərinin" qarşısını alacaq. Hakimiyyətə yaxın KİV-də belə məlumatlar dərc olunur ki, Babayan Qarabağda çaxnaşma yaratmağa, destablizasiyaya hazırlaşır. Beləliklə, yaxın vaxtlarda Qarabağda maraqlı hadisələr gözlənilir və bizim məlumatımıza görə, hakimiyyət yolverilməz hərəkətlərin qarşısını almaq üçün bütün səyləri göstərir. Paşinyan belə vəziyyətdən istifadə etməklə Qarabağda öz adamını rəhbər təyin etməyə cəhd edir".

Belə vəziyyətdə Nikol Paşinyanla Dağlıq Qarabağdakı qondarma rejim arasında münasibətlərin daha da gərginləşəcəyi gözlənir. Çünki, qeyd olunduğu kimi, Paşinyan Qarabağda öz adamını hakimiyyətə gətirməyə çalışır, "Qarabağ klanı" isə öz adamlarını - general Vitali Balasanyanı "prezident" etmək istəyir. Bu durumda Samvel Babayanın Qarabağda vəziyyəti qarışdırması zəbt edilmiş ərazilərdə xaotik bir vəziyyətin yaranmasına gətirib çıxaracaq. İndi belə vəziyyətdən həm "Qarabağ klanı", həm də Paşinyan öz məqsədləri üçün istifadə etməyə çalışır.

***Nahid SALAYEV***

# Paşinyan hakimiyyətə gələndən ABŞ-ın bu ölkəyə münasibəti daha da pisləşib - 193 ölkədən 170-cisi...

**"Keçən il ABŞ Konqresinin erməni məsələləri üzrə komissiyası tərəfindən Tramp-Paşinyan yüksək səviyyəli görüşünün təşkil edilməsinə cəhd edilsə də, təşkilatçılar sırasında Tramp siyasətinin fəal tənqidçisi olan konqresmenlərin - Adam Şif və Franks Palonun olduğunu nəzərə alaraq, görüşün iflasa uğrayacağını öncədən güman etmək olardı". Bu barədə Erməni Amerika Araşdırmaları Mərkəzinin məqaləsində bildirilib.**



## *Mübariz Əhmədoğlu: "ABŞ-la bu ölkənin münasibətləri Paşinyanın özü tərəfindən korlandı"*

Məqalədə qeyd olunur ki, müstəqillik əldə etdikdən bu günədək Ermənistan ABŞ-dan 2 milyard dollaradək xarici yardım alıb. Lakin indi vəziyyət yalnız Ermənistanda deyil, həmçinin, ABŞ-da da dəyişib: "2018-ci ildə baş verən inqilabdan sonra ABŞ 14 milyon dollar həcmində Ermənistan üçün maliyyə yardımının həcmini artırsa da, bu əsasən demokratik proseslərə və ümumi dəyərlərə dəstək məqsədilə edilən siyasi jest idi".

Məqalədə o da qeyd olunur ki, artıq Ermənistan-ABŞ siyasi münasibətlərində yüksək səviyyəli görüşlər tükənib: "Ermənistanın bir sıra rəsmi şəxsləri, o cümlədən, xarici işlər naziri, müdafiə naziri, nəqliyyat, rabitə və informasiya texnologiyaları naziri və Təhlükəsizlik Şurasının katibi işgüzar səfərlə ABŞ-da olsalar da, eyni səviyyəli həmkarları ilə görüşlərə nail ola bilməyiblər. Ermənistan-ABŞ münasibətlərində bu, yaxşı hal hesab oluna bilməz. Ona görə ki, 193 ölkə arasında Ermənistan ABŞ-la ticarət tərəfdaşlığı sıralamasında 170-ci yeri tutur. İndiki ABŞ administrasiyasının biznesyönümlü olduğunu nəzərə alaraq, məhz iqtisadi sahənin ABŞ-la münasibətlərdə mühüm rol oynaya biləcəyini qeyd etmək olardı. Lakin təəssüf ki, bu da baş vermədi".

Paşinyan "məxməri inqilab" dalğasında hakimiyyətə gəldiyi və islahatlarla bağlı çoxsaylı populist vəd verdiyi üçün, prinsipcə, bu özünü Ermənistan-ABŞ münasibətlərində, iki ölkənin ticarət əlaqələrinin artmasında göstərməli idi. Ancaq, göründüyü kimi, bunların heç biri baş verməyib. Ermənistan 193 ölkə arasında ABŞ-la ticarət tərəfdaşlığı sıralamasında 170-ci yerdədir. O baxımdan, bütün bunları ekspertlər necə dəyərləndirirlər?

*"Bu səbəbdən Ermənistan ölkələr arasında Birləşmiş Ştatlarla ticarət tərəfdaşlığı sıralamasında yerində sayır"*

**Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, bütün bunlar təsadüfi deyil:** "ABŞ-la bu ölkənin münasibətləri Paşinyanın özü tərəfindən korlandı. Yəni Paşinyan "məxməri inqilab"a pul qoparmaq nöqteyi-nəzərdən yanaşdı.Yəni yanaşması belə idi ki, inqilabdan sonra gərək ABŞ və Avropa İttifaqı ona pul versin. Guya Ermənistan Rusiyanın təsir zonasından çıxacaq və bu səbəbdən Ermənistana maliyyə yardımı edilməlidir. Bunu həm də onunla əsaslandırmağa çalışırdılar ki, guya Ermənistanın yeni hakimiyyəti demokratik yol seçib və s. Bir sözlə, Paşinyan Ermənistanın ABŞ-la münasibətlərini pul üzərində qurmağa çalışdı. Birləşmiş Ştatlar da təbii ki, belə bir variantı qəbul edə bilməz. Xüsusən də indiki dövrdə. Bu səbəbdən Ermənistan ölkələr arasında ABŞ-la ticarət tərəfdaşlığı sıralamasında yerində sayır. Ermənistan vacib ölkə olsaydı, mənzərə fərqli ola bilərdi. Digər bir tərəfdən, ABŞ-ın hazırkı Cənubi Qafqaz dövlətlərinə münasibəti konfrantasiyadan qaçmaq məqsədi daşıyır. Ermənistan isə ancaq qarşıdurma axtarır. Ona görə də Ermənistanın ABŞ-ın yanında yeri yoxdur.

**ABŞ görür ki, Cənubi Qafqazda ən yaxşı regional siyasət yeridən ölkə Azərbaycandır. Bu səbəbdən Azərbaycandan nə İrana, nə də Rusiyaya qarşı heç bir şey tələb etmir. Bütövlükdə, Cənubi Qafqazda ABŞ üçün ən vacib dövlət Azərbaycandır".**

***Vidadi ORDAHALLI***

# Təcavüzkar Ermənistan cilovlansaydı... Aralıq dənizindəki proseslərə görə Türkiyəyə nota verə bilməzdi...

**Məlum olduğu kimi, Türkiyəyə məxsus ikinci geoloji kəşfiyyat gəmisi də Aralıq dənizində fəaliyyətə başlayıb. Bundan əvvəl Türkiyəyə məxsus "Fatih" geoloji kəşfiyyat gəmisi may ayında Kipr adasının qərbində axtarış-qazma fəaliyyətinə başlayıb. Türkiyəyə məxsus ikinci geoloji kəşfiyyat gəmisi "Yavuz" isə bu günlərdə Kiprin Karpaz yarımadasının cənubunda açıq dənizdə fəaliyyətə başlayıb.**



## *Məhəmməd Əsədullazadə: "Ermənistanın belə bir etirazla çıxış etməyə mənəvi haqqı yoxdur"*

Türkiyənin məlum axtarış işlərinə başlaması Yunanıstanı narahat edir.

Bu arada Ermənistan Xarici İşlər Nazirliyi də sözügedən məsələdə Türkiyəyə qarşı bəyanatla çıxış edib. Qeyd edilir ki, Kiprin şimal-şərq hissəsində Türkiyənin yeni qazma işləri həyata keçirmək cəhdindən Ermənistan dərin narahtlıq duyur. Guya Türkiyənin bu yöndə fəaliyyəti regional təhlükəsizliyi və sabitliyi təhlükə altına atır: "Kipr Respublikasına və xalqına tam dəstəyimizi yenidən təsdiq edirk".

Həyasızlığın dərəcəsinə bax ki, təcavüzkar Ermənistan bu məsələdə Türkiyəyə qarşı mövqe sərgiləyərək beynəlxalq hüquqdan dəm vurur. Bu həmin Ermənistandır ki, beynəlxalq hüquqla tanınan Azərbaycan ərazilərinin 20 faizini işğal edib. Dünyada beynəlxalq ədalət olsaydı, Ermənistan buna görə cəzalandırılsaydı, o zaman bu cür bəyanatlarla çıxış etməyə cəsarət etməzdi. Bütün bunlar Ermənistanın cəzalandırılmamasının nəticəsidir.

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadə Ermənistanın bu həyasızlığına bir neçə aspektdən yanaşdı:** "Türkiyənin Aralıq dənizinin şərq şelfində beynəlxalq sularda qazma və geoloji kəşfiyyat işləri müəyyən dövlətlərin narazılığına səbəb olub. Əsasən Yunanıstanın etirazları daha qabarıq formadadır. Çünki Yunan Kipri burada türklərin təməl haqlarını tanımayan qaz axtarışlarına çıxıb. Təbii ki, bunun cavabı sərt verilməli idi və Türkiyə buna adekvat cavab verdi. Hazırda Yavuz və digər gəmilər Kipr sahillərində öz missiyalarını yerinə yetirməkdədirlər. Yunanıstan, Misir və digər dövlətlərin etirazlarına rəğmən, bu fəaliyyət davam etdirilir. Ermənistanın bu kimi fəaliyyətini

*"İkili standartlar üzündən sözügedən ölkə cəzalandırılmadığı üçün belə həyasızlıq edir"*

Yunanıstana dəstək kimi xarakterizə edirəm. Bu iki dövlətin Türkiyəyə qarşı ərazi iddiası var. İşğalçı Ermənistanın Türkiyəni ittiham etməsi gülüncdür və bu, İrəvanın heç də hüququn yanında olduğunun göstəricisi deyil. İlk növbədə bu, İrəvanın Türkiyəyə qarşı düşmənçilik siyasətinin təzahürüdür. Bu ölkə sülh və əməkdaşlıqda maraqlı olmadığını göstərir. Hesab edirəm ki, Ermənistanın bu davranışları Türkiyə tərəfindən heç də ciddi qəbul olunmur. Forpost və işğalçı bir ölkənin bu bəyanatı görüntü xarakteri daşıyır. Bu gün Türkiyənin siyasəti regionda sülh və əməkdaşlığa xidmət edir.

Yunanıstan və Ermənistan tandemi yalnız quru və mənasız bir siyasi işbirliyidir. Ən başlıcası, Ermənistanın belə bir etirazla çıxış etməyə mənəvi haqqı yoxdur. Ona görə ki, bu ölkənin özü təcavüzkardır. Əfsuslar olsun ki, ikili standartlar üzündən Ermənistan cəzalandırılmadığı üçün belə həyasızlıq edir".

***Vidadi ORDAHALLI***

# Bakı ilyarımdan sonra NATO - Rusiya dialoqunu bərpa etdi - Bakı görüşü dünya analitikləri üçün bir saylı məsələyə döndü...

**Bakıda Rusiya Baş Qərargah rəisi Valeri Gerasimovla NATO Birləşmiş Qüvvələrinin Komandanı Ted Uolters arasında görüş beynəlxalq miqyasda da xüsusi diqqətlə izlənir. Ən azı o baxımdan ki, indiki şəraitdə NATO - Rusiya münasibətləri kifayət qədər gərgindir və məhz Bakı görüşünün bu gərginlyin aradan qalxmasına gətirib çıxaracağı proqnozlaşdırılır.**




Görüş üçün yenidən Bakının əsas məkan kimi seçilməsi isə tamamilə təbii sayılır. Çünki NATO-nun Cənubi Qafqazdakı əsas tərəfdaşı olan Gürcüstanın Rusiya ilə münasibətləri gərgindir. Bu baxımdan Rusiya görüş yeri kimi Gürcüstanı qəbul etməz. Həmçinin NATO da Ermənistanı görüş yeri kimi qəbul etməz. O baxımdan ki, Ermənistan Rusiyanın nəzarəti altındadır. Azərbaycanın isə həm Rusiya, həm də NATO ilə tərəfdaşlıq münasibətləri mövcuddur. Buna görə də Bakıda görüşmək həm Rusiyaya, həm də NATO-ya sərf edir. Digər tərəfdən, Bakının artıq belə görüşlərin təşkili üçün yaxşı təcrübəsi də mövcuddur. Belə ki, Bakı 2017-ci ilin fevralında ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Qərargah rəisləri Komitəsinin rəhbəri, general Cozef Danford və rusiyalı həmkarı Valeri Gerasimov arasında keçirilən görüşə, həmin ilin sentyabrında NATO Hərbi Komitəsinin rəhbəri, general Petr Pavellə Rusiya Silahlı Qüvvələrinin Baş qərargah rəisi Valeri Gerasimov arasındakı görüşə və 2018-ci ilin aprelində yenə Valeri Gerasimovla NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti arasındakı görüşə ev sahibliyi edib.

Yuxarıda qeyd olunduğu kimi, NATO ilə Rusiya arasında mülki və hərbi sahə üzrə əməkdaşlıq tamamilə dayandırılıb. Bu barədə cari ilin aprelində Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko bildirmişdi. Onun sözlərinə görə, əməkdaşlıq NATO-nun təşəbbüsü ilə dayandırılıb. Qruşko o vaxt açıq mətnlə qeyd etmişdi ki, hərbi blokla Rusiya arasında münaqişə bəşəriyyət üçün fəlakət ola bilər. Bu mənada bir-biri ilə əməkdaşlığı dayandıran iki tərəfin Bakıda yenidən görüşməsi dünya miqyasında təhlükəsizlik üçün vacib sayılır. Digər tərəfdən, bu görüşün yenidən Bakıda keçirilməsinin bir sıra üstünlükləri var. Azərbaycan heç kimin təsiri altında deyil. Eləcə də Azərbaycan Rusiyanın liderlik etdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olmadığından, qarşı tərəf üçün Rusiyanın hərbi cəhətdən təsir dairəsinə daxil deyil. Azərbaycan NATO-ya da üzv deyil və alyansın Azərbaycanla münasibəti daha çox əməkdaşlıq səviyyəsindədir. Məsələnin bu tərəfinə nəzər salan Rusiyanın Aktual İqtisadiyyat İnstitutunun direktoru Nikita İsayev də qeyd edir ki, Azərbaycan çoxdan Rusiya və NATO-nun danışıqlar üçün təbii meydanına çevrilib. Onun sözlərinə görə, Azərbaycan neytral mövqe tutur və bunun üçün də burada danışıqlar aparmaqda təəccüblü heç nə yoxdur. Belə ki, regionun bütün ölkələrinin nəyəsə münasibətdə problemləri mövcuddur. Ermənistan Azərbaycan və Türkiyə ilə elə də rəvan münasibətlərə sahib deyil, İran beynəlxalq geosiyasi və hərbi təcriddədir, Rusiya sanksiyalar altındadır, Gürcüstanda qeyri-stabillik, Minskdə Rusiya ilə münasibətlərdə çətinliklər yaşanır. Bu siyahını uzatmaq da olar. Bakı yaranmış situasiyadan effektiv istifadə edə bilir. Rusiya və ABŞ-ın etdiyi seçimdə təəccüblü heç nə yoxdur". Rusiyanın hərbi-siyasi ekspert Oleq Kuznetsovun sözlərinə görə isə, Bakı Qərb və Rusiya arasında etibarlı körpüyə çevrilib: "Bakının dünya arenasında rolu hər gün daha da artır. Bu, Azərbaycana olan etimadın göstəricisidir. Üstəlik, bu məsələdə ölkənin müstəsna coğrafi mövqeyi - Asiyanın bütün regional yaralı nöqtələrinə - İran, İraq, Suriya, Fars körfəzinin kiçik ölkələrinə və Səudiyyə Ərəbistanına yaxınlığı da rol oynayır".

Ekspert qeyd edib ki, Azərbaycanın uğurlu xarici siyasəti və beynəlxalq arenada müsəlman - xristian sivilizasiyalarının kəsişmə və dialoq məkanı kimi yüksək imici BMT və UNESKO himayəsi altında "Bakı prosesi"ndə öz əksini tapdı: "Tərəflərin Azərbaycandan qərəzsiz platforma kimi istifadə etməsində ölkənin heç bir bloka qoşulmaması, Rusiya və onun KTMT müttəfiqləri, xüsusən Belarusla olduğu kimi, həmçinin ABŞ-ın NATO müttəfiqləri Türkiyə, Almaniya və İtaliya ilə, Vaşinqtonun müstəqil və əsas strateji müttəfiqi sayılan İsraillə hərbi-texniki sahədə çoxvektorlu əməkdaşlığı da öz rolunu oynayır. Bakı rus və amerikalı hərbi ekspertlərin danışıqlar aparması üçün qarşılıqlı anlaşma və konstruktiv dialoq naminə əlverişli atmosferə malik rahat məkan reputasiyası formalaşdırıb. Bütün bunlar olmasaydı, çətin ki, iki supergücün əsas hərbi rəhbərləri mütəmadi olaraq Bakıda görüşərdi. Onların ünsiyyətində kiçik bir qüsur olsaydı, o zaman keçmiş uğursuzluqları xatırlamamaq üçün danışıqlar məkanını dəyişərdilər".

Beləiklə, bütün bu qeyd edilənlər aydın göstərir ki, Azərbaycanın dünyanın əsas güc mərkəzləri ilə balanslı siyasət həyata keçirməsi öz müsbət nəticələrini verir. Bunu aydın görən ABŞ, həm də Rusiya onu da nəzərdən qaçırmır ki, Bakı onlarla eyni dərəcədə qarşılıqlı faydalı əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrini daim inkişaf etdirir. Eyni zamanda Azərbaycan regionda yeni əməkdaşlıq formatlarının əsas təşəbbüskarı kimi çıxış edir. Görüşün keçirilməsində Bakının seçilməsi onu da deməyə əsas verir ki, beynəlxalq hərbi birliklərə üzv olmasa da, Azərbaycan ABŞ, Avropa İttifaqı və Rusiya ilə çox yaxşı münasibətlərə malikdir və onların hörmət bəslədiyi dövlətdir. Bir sıra beynəlxalq layihələrin həyata keçirilməsində uğurlu iştirakı Azərbaycanın təkcə regionda deyil, daha geniş miqyasda sabitləşdirici rol oynadığının göstəricisidir. Politoloq Qabil Hüseynlinin sözlərinə görə isə, belə bir əhəmiyyətli görüşün Bakıda keçirilməsində lider amili də mühüm rol oynayır: "Azərbaycanın siyasi rəhbərliyi dünyada kifayət qədər tanınıb. Bakı kimi dünyanın ən gözəl şəhərlərindən birinin inkişaf etməsində ölkə siyasi rəhbərliyinin böyük rolu var. Üstəlik, Prezident İlham Əliyev müxtəlif beynəlxalq görüşlərdə, Davos iqtisadi forumunda, İƏT-in tədbirlərində və digərlərində ölkəmizi təmsil edən biri kimi diqqət mərkəzindədir. İlham Əliyevin yüksək siyasi mədəniyyətə və nitqə malik olması, bir neçə dildə sərbəst danışması onun ölkə başçısı kimi xüsusi çəkisini daha da artırır. Zənnimcə, ölkə rəhbərliyi belə tədbirlərin Bakıya yönəldilməsində əhəmiyyətli rol oynayır".

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# AB və NATO-nun dalbadal Azərbaycanın ərazi bütövlüyünə dəstəyi Ermənistanda böyük təşviş yaradıb

**Bu gün Qərb dünyası ilə Azərbaycanın intensiv şəkildə inkişaf edən əlaqələri ABŞ və Avropada Dağlıq Qarabağ münaqişəsinə yanaşmada da mühüm dəyişikliklərə rəvac verir. İndi Qərbdə hesab edilir ki, Azərbaycanın ərazi bütövlüyü mümkün qədər tez bərpa edilməlidir və bu, Cənubi Qafqaz kimi mühüm regionda sabitlyin təminatı baxımından olduqca önəmlidir.**

NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali komandanı general Tod Voltersin bu xüsusda Bakıda olarkən səsləndirdiyi fikirlər də qeyd olunanların daha bir təsdiqi sayılır.

Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovla görüş üçün Bakıya gələn amerikalı general burada olduqca mühüm mesajlar verdi. O, Azərbaycanın NATO-nun etibarlı tərəfdaşı olduğunu xüsusi qeyd edərək, ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda göstərilən peşəkarlığı yüksək qiymətləndirdiklərini bildirdi. Tod Volters NATO-nun Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəklədiyini bildirərək, Alyansın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu da diqqətə çatdırıb. Ekspertlər isə hesab edir ki, NATO generalının Bakıda səsləndirdiyi bu fikirlər həm də işğalçı Ermənistana ünvanlanmış bir mesajdır. Burada kifayət qədər aydın şəkildə diqqətə çatdırılır ki, Azərbaycan NATO üçün strateji tərəfdaşdır, eyni zamanda dünyanın ən güclü hərbi bloku birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Özü də bütün bunlar o fonda cərəyan edir ki, Ermənistanın Qərb ölkələri, o cümlədən ABŞ-la münasibətləri kəskin surətdə pisləşir.

ABŞ-la yanaşı, yuxarıda qeyd olunduğu kimi, Avropa da Qarabağ məsələsində kifayət qədər aydın və sərt mövqe sərgiləyir. Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ölkəmizdə səfərdə olarkən bu xüsusda bildirib ki, Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir. Bu bəyanat Ermənistan üçün mesaj sayılır ki, beynəlxalq birlik Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir. Ona görə də münaqişənin həllini uzatmaq Ermənistana yaxşı heç nə vəd etmir. Bütün dünya, eləcə də Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Həmçinin nin xatırladaq ki, bundan əvvəl Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində də Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə və suverenliyinə bir daha dəstək ifadə olunub. Bu sənədin birinci bəndində qeyd edildiyi kimi, əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq, Azərbaycan və Avropa İttifaqı tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Mühüm məqam odur ki, sənəddə hər iki tərəfin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərin toxunulmazlığının dəstəklənməsinə sadiqliyi ifadə olunur.

Beləliklə, ABŞ və Avropa Qarabağ məsələsində bu gün Azərbaycanın maraqlarına cavab verən bir mövqe sərgiləyir. Onların Cənubi Qafqazda fəallaşması isə Qərb ölkələrinin, xüsusən də ABŞ-ın Qarabağ məsələsində daha aktiv siyasət yürüdəcəyini istisna etmir. Xüsusən də bu gün Amerikanın Cənubi Qafqaz siyasəti çox maraqlı və diqqət cəlb edəndir. Bu siyasətin mahiyyəti onu göstərir ki, ABŞ üçün regionda Ermənistan daha sürətlə arxa plana keçir. Bunu Erməni Amerika Araşdırmaları Mərkəzinin hazırladığı məqalədə də aydın görmək olar. Burada qeyd olunur ki, ABŞ üçün Ermənistan sürətlə əhəmiyyətini itirir və belə vəziyyətdə qazanan tərəflərdən biri Azərbaycandır. Məqalədə qeyd olunur ki, qarşılıqlı münasibətlər yaradılarkən ABŞ bölgənin və xüsusilə də Ermənistanın özü üçün rolunu nəzərə alır: "Xüsusilə Tramp kimi praqmatik və iş adamı ilə münasibət qurarkən ABŞ-ın birinciliyi şüarı yalnız şüar olaraq qalmır, reallıqda icra olunur. Məhz bu konsepsiyanın təsiri altında Tramp ABŞ tərəfindən dünyanın müxtəlif ölkələrinə ayrılan yardımların həcmini 50%-dək ixtisara salmağı qərara alıb. Qeyd edək ki, müstəqillik əldə etdikdən bugünədək Ermənistan ABŞ-dan 2 milyard dollaradək xarici yardım alıb. Lakin indi vəziyyət yalnız Ermənistanda deyil, həmçinin ABŞ-da da dəyişib. 2018-ci ildə Ermənistanda baş verən inqilabdan sonra ABŞ 14 milyon dollar həcmində Ermənistan üçün maliyyə yardımının həcmini artırsa da, bu, əsasən demokratik proseslərə və ümumi dəyərlərə dəstək məqsədilə edilən siyasi jest idi. ABŞ və Ermənistan arasında 2019-cu il mayın 9-da baş tutan Ermənistan-ABŞ strateji dialoq iclası və bunun münasibətlərin müəyyən qədər yüksəlməsinə səbəb olmasına dair İrəvanın açıqlamaları isə reallığı əks etdirmir. ABŞ nümayəndə heyətinə dövlət katibinin köməkçisinin müavininin rəhbərlik etməsi də bunun təsdiqidir. Bu dialoq zamanı ABŞ ikitərəfli münasibətlərdə daha vacib siyasi məsələləri irəli çəksə də, Ermənistan tərəfinin ABŞ qarşısında hər hansı siyasi tələb qoyması çətin məsələdir. Belə vəziyyət İrəvanın diplomatik baxımdan səbətsiz olduğunu da göstərir. ABŞ prezidentinin milli təhlükəsizlik müşaviri Con Boltonun ötən il baş tutan bölgə səfəri isə Ermənistandan daha çox Azərbaycanın lehinə işləyib. Həmin səfər əsasən İran faktoru ilə əlaqədar olub və bu çərçivədə rəsmi İrəvanın heç bir strategiyaya malik olmadığını üzə çıxarıb. ABŞ - Ermənistan strateji dialoqunun səviyyəsinin artırılması və hansı məsələlərin qoyulduğunu təsəvvür etmək çətin deyil. Con Bolton Cənubi Qafqaza səfəri çərçivəsində hər 3 ölkə rəhbərliyi ilə görüşüb.

Bolton keçirilən görüşlərdə bəyan edib ki, Azərbaycan və Gürcüstan ABŞ üçün strateji əhəmiyyəti olan, Ermənistan isə mühüm prioritet kəsb edən ölkələrdəndir. Təsadüfi deyil ki, bu səfər ABŞ-İran münasibətlərinin gərginləşməsi mərhələsində baş tutub.

Ümumiyyətlə, İranla münasibətlər, həmçinin sanksiyaların memarı məhz Boltonun ofisidir. Bolton isə İrana qarşı aparılan siyasətin "Vaşinqton qartalı" hesab olunur. Məlumdur ki, Boltonun bölgəyə səfəri ilk növbədə kəşfiyyat xarakteri daşıyırdı. Onun məqsədi İran ətrafında halqanın daraldılması imkanlarını nəzərdən keçirmək idi. Əlbəttə, Rusiya da eyni qaydada vacib əhəmiyyət kəsb edir, lakin bu məsələyə başqa bir vaxt toxunulacağı qeyd olunur. Ermənistan üçün iki əhəmiyyətli ölkə, ABŞ və İran arasında münasibətlərin kəskinləşməsi hər hansı şəkildə İrəvanın maraqlarına cavab vermir. Çox təəssüf ki, Ermənistanın heç bir dövlət orqanı vəziyyət mənfi istiqamətdə inkişaf etdiyi halda atılacaq addımlara qarşı hazırlanmış strategiyaya malik deyil.

Artıq Ermənistan-ABŞ siyasi münasibətlərində yüksək səviyyəli görüşlər tükənib. Ermənistanın bir sıra rəsmi şəxsləri, o cümlədən xarici işlər naziri, müdafiə naziri, nəqliyyat, rabitə və informasiya texnologiyaları naziri və Təhlükəsizlik Şurasının katibi işgüzar səfərlə ABŞ-da olsalar da, eyni səviyyəli həmkarları ilə görüşlərə nail ola bilməyiblər. Bu, Ermənistanın ABŞ üçün əhəmiyyətinin azalmasının təsdiqidir. Keçən il ABŞ Konqresinin erməni məsələləri üzrə komissiyası tərəfindən Tramp-Paşinyan yüksək səviyyəli görüşünün təşkil edilməsinə cəhd edilsə də, təşkilatçılar sırasında Tramp siyasətinin fəal tənqidçisi olan konqresmenlərin- Adam Şif və Franks Palonun olduğunu nəzərə alaraq, görüşün iflasa uğrayacağını öncədən güman etmək olardı.

Artıq qeyd edildiyi kimi, Ermənistan-ABŞ münasibətlərində bu, yaxşı hal hesab oluna bilməz. Ona görə ki, 193 ölkə arasında Ermənistan ABŞ-la ticarət tərəfdaşlığı sıralamasında 170-ci yeri tutur. İndiki ABŞ administrasiyasının biznesyönümlü olduğunu nəzərə alaraq, məhz iqtisadi sahənin ABŞ-la münasibətlərdə mühüm rol oynaya biləcəyini qeyd etmək olardı. Lakin bu da baş vermədi. Bunlar fonunda o da müşahidə olunur ki, ABŞ-la Azərbaycan arasında iqtisadi müstəvidə əlaqələr sürətlə inkişaf edir və bu hal siyasətə də təsir edir. Məhz bu durumda ABŞ-ın Qarabağ məsələsində hansı mövqe tutacağını təsəvvür etmək o qədər də çətin deyil".

Bununla yanaşı diqqət ona yönəldilir ki, Vaşinqton Qarabağ məsələsində indi aktiv siyasətə başlayıb və Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla Ermənistanın XİN rəhbəri Zöhrab Mnatsakanyanın son görüşünü də məhz Vaşinqton təşkil edib. Elə növbəti görüşün də məhz ABŞ-da təşkil olunması gözlənir. Bunu Zöhrab Mnatsakanyan da təsdiq edib. "Hraparak" nəşrinin növbəti görüşlə bağlı sualına erməni nazir belə cavab verib: "Analiz etdik və sentyabr ayında baş tutacaq Nyu-Yorkda BMT Baş Asssambleyasını tapdıq. Bu tədbir çərçivəsində Elmar Məmmədyarovla görüş gözlənilir". Bütün bunlar ABŞ-ın Qarabağ məsələsində artıq aktiv siyasətə start verdiyini göstərir.

Hesab edilir ki, yaranmış vəziyyətdə ABŞ Qarabağ danışıqlarında nəticə üçün Ermənistana qarşı təzyiq rıçaqlarını işə salsa, İrəvanın təcavüzkar siyasətini davam etdirməsi müşkülə çevriləcək. Məsələ burasındadır ki, son dövrlərə qədər ABŞ-ın Qarabağ təşəbbüsləri davamlı xarakter daşımır və Minsk Qrupu daxilində epizodik yer alırdı. Amma son bir ildə vəziyyət dəyişib və bu həm də onu göstərir ki, ABŞ bu prosesdə təşəbbüsü itirmək istəmir. Çünki uzun illərdir münaqişənin həlli istiqamətində fəallığı Rusiya tərəfi göstərirdi və hazırkı real təkliflər də Rusiyaya məxsus idi. Münaqişə tərəfləri də keçirilən görüşlərdə bu təkliflər əsasında müzakirələr aparırdılar. Lakin indilikdə ABŞ özü prosesdə aktiv tərəf qismində çıxış edir. ABŞ-ın belə fəallığı isə Azərbaycanın da maraqlarına cavab verir. Çünki ABŞ Qarabağ münaqişəsinin ərazi bütövlüyü çərçivəsində həllini istəyir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Xaricdə insan haqları ilə bağlı treninqlərdə iştirak Azərbaycan polisinin fəaliyyət istiqamətlərindən biri kimi...

***Əliməmməd Nuriyev:** "Polislərin xarici ölkələrdə treninqlər keçməsi, seminarlarda iştirak etməsi həm polisin peşəkarlıq səviyyəsinin yüksəlməsinə xidmət edir, həm..."*

**Son illər Azərbaycan polisinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. Polis orqanı əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması, habelə onların insan hüquq və azadlığının müdafiəsi sahəsində müasir fəaliyyət üsullarına yiyələnməsi əsas hədəflərdən biridir.**

Məlum olduğu kimi, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Azərbaycanda səfərdə olan Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü zamanı Azərbaycan polisinin fəaliyyəti müzakirə edilib.

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən mətbuata verilən məlumata görə, nazir qeyd edib ki, Prezident İlham Əliyevin ölkəmizin hüquq-mühafizə orqanlarının qarşısında qoyduğu ən mühüm vəzifələrdən biri insan haqlarının qorunmasıdır. V.Eyvazov bu istiqamətdə Daxili İşlər Nazirliyi ilə Avropa Şurası arasında sıx və işgüzar əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin xüsusi əhəmiyyət daşıdığını, vətəndaşlarla kobud rəftarın və polisin nüfuzuna xələl gətirən digər neqativ halların qarşısının alınması sahəsində də davamlı iş aparıldığını deyib.

Peşəkarlığın, dünyagörüşün artırılması, beynəlxalq təcrübənin tətbiqi yönündə görülən işlərin məqsədyönlü və sistemli şəkildə həyata keçirildiyini qeyd edən nazir bildirib ki, daxili işlər orqanlarının əməkdaşları müxtəlif ölkələrə, o cümlədən, Amerika Birləşmiş Ştatlarına və Avropa dövlətlərinə təlimlər keçməyə göndərilir, təcrübəli beynəlxalq ekspertlərin iştirakı ilə ölkəmizdə seminarlar, treninqlər, kurslar təşkil olunur. Yalnız insan hüquqları üzrə ölkəmizdə və xarici dövlətlərdə keçirilən tədbirlərdə son 5 ildə DİN-in 3 minə yaxın əməkdaşı iştirak edib.

Son illər xarici ölkələrdə keçirilən müxtəlif treninq və seminarlarda iştirak etmək Azərbaycan polisinin peşəkarlıq səviyyəsinin artmasına, habelə onların insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətindəki fəaliyyətinə necə təsir göstərib?

**Tanınmış hüquqşünas Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan polisi son illər öz fəaliyyətini tamamilə müasir standartlara uyğun qurub.** "Şübhəsiz ki, treninqlərin keçirilməsi bütün sahələrdə çox vacibdir. Bu, polis fəaliyyəti üçün olduqca lazımlıdır. Polis çoxşaxəli fəaliyyət göstərən, həm də təhlükəsizliyi təmin edən bir orqandır. Bu baxımdan, polislərin xarici ölkələrdə treninqlər keçməsi, seminarlarda iştirak etməsi həm peşəkarlıq səviyyəsinin yüksəlməsinə xidmət edir, həm onlar xarici təcrübəni öyrənir, həm də insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində funksiyaları ilə bağlı daha yeni məlumatlar əldə edirlər. Azərbaycanda da mütəmadi olaraq Daxili İşlər Nazirliyi tərəfindən polislərin peşəkarlıq fəaliyyətinin yüksəldilməsi üçün müxtəlif seminarlar, treninqlər həyata keçirilir. Bununla yanaşı, xarici təcrübənin öyrənilməsi və onun ölkəmizə gətirilməsi də çox vacib məsələdir. Çünki Azərbaycan Avropa Şurasının üzvüdür və bu gün bütün beynəlxalq konvensiyalara qoşulub. Bu da Azərbaycana istər insan hüquq və azadlıqlarının qorunması, istər cinayətkarlığa qarşı mübarizə sahəsində şübhəsiz ki, həm də o imkanı verir ki, bizim polislər də başqa ölkələrdə treninqlər keçsinlər. Polislərin xarici ölkələrdə treninqlərə cəlb edilməsi onların yeni davranışlarının formalaşmasına kömək edir. Açıq deyək ki, müasir Azərbaycan polisi dünənki Azərbaycan polisi deyil, bu sahədə çox ciddi irəliləyişlər var. Bir neçə il əvvəl mən polislərlə bağlı treninqlərdə iştirak edirdim, həm də həmin vaxt bizim polislər treninq keçmək üçün Hollandiyaya getmişdilər. Bu sahədə çoxillik təcrübəyə malik olan Hollandiyada polislərimizin təcrübə keçməsi onların fəaliyyətində müsbət şəkildə özünü göstərdi. İndi özünüz fikir verib görün ki, keçən əsrin 90-cı illərinin polisinin davranışı ilə 2019-cu illin polisinin davranışları arasında yerlə-göy qədər fərq var. Bu dəyişiklik müsbət istiqamətdə baş verib, polisin peşəkarlıq səviyyəsinin daha da yüksəlməsi ilə nəticələnib. Bizim polisin fəaliyyəti insan hüquq və azadlıqlarının daha yüksək səviyyədə qorunmasına doğrudur, əlbəttə, burada polislərimizin xaricdə keçdiyi təcrübənin də rolu var. Polisimiz bir sıra sahələrdə, eləcə də insan hüquq və azadlıqları, insan alveri və s. sahələrdə xeyli irəliləyiş əldə edib. Bilirsiniz ki, polisin üzərinə bir sıra funksiyalar düşür. Polislərin treninqlərdə iştirakı çox vacibdir".

Polisin həm də əməliyyat-axtarış tədbirlərini həyata keçirdiyini və istintaq apardığını deyən Ə.Nuriyevin sözlərinə görə, istintaq aparılarkən insanların hüquq və azadlıqları ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi çox lazımlıdır və buna polislərimiz yiyələnir. "Avropa Məhkəməsinin çoxsaylı qərarı var və qərarlarda insan hüquq və azadlıqları ilə bağlı çox mühüm presedentlər var. Bu presedentlərin öyrənilməsi də çox vacib məsələdir və polis bu proseslərdə iştirak edir. Eyni zamanada, "İnterpol" kimi böyük beynəlxalq bir qurum var. Xarici ölkələrlə əməkdaşlıq mübadiləsinin aparılması, təcrübənin öyrənilməsi, xaricdə əməliyyatların aparılması proseslərinin öyrənilməsi baxımından bu treninqlər mühüm rol oynayıb. Polislərin xarici ölkələrdə treninqlər keçməsi çox vacibdir, bunun müsbət nəticələri var və bu sahədə Azərbaycan polisi xeyli təcrübə toplayıb. Deyim ki, Azərbaycan polisi bu treninqlərə qatılarkən həm də öz təcrübəsini qarşılıqlı olaraq bölüşür. Yəni bu treninqlərdə yalnız bizim polislər öyrənmir, həm də öz təcrübəsini paylaşır. Xaricilər də bizim polislərin təcrübəsindən çox şey öyrənirlər. Elə məsələlər var ki, onlar Azərbaycanda daha yüksək səviyyədə inkişaf edib. Məsələn, cinayətlərin açılması bizdə yüksək faizdir. Bunu polis necə həyata keçirir, hansı üsullardan, yeni innovasiyalardan, texnologiyalardan istifadə edir? Ölkəmizdə cinayətlərin üstünün açılması hətta 90 faiz təşkil edir. Bu çox mühüm məsələdir. Başqa ölkələrdə cinayətlərin üstünün açılması faizi bu qədər yüksək deyil, amma Azərbaycan polisinin işində bu özünü çox yüksək səviyyədə göstərir. Təhlükəsiz şəhər məsələsi də bizim təcrübədə var. Xaricilər üçün maraqlı gələ bilər ki, Azərbaycan polisi təhlükəsiz şəhər məsələsini necə qurur? Bunlar mühüm amillərdir. Bundan başqa, cinayətkarların "isti izlər"lə tutulması da Azərbaycanda operativ şəkildə həyata keçirilir. Ən vacib məsələ, əlbəttə ki, insan hüquq və azadlıqları ilə bağlı bir sıra yeni vərdişlərin əldə edilməsində, eyni zamanda da insan alverinə, eləcə də narkotiklərə qarşı mübarizədə yeni innovasiyaların tətbiq edilməsi çox vacibdir.




*"Bizim polisin fəaliyyəti insan hüquq və azadlıqlarının daha yüksək səviyyədə qorunmasına doğrudur, əlbəttə, burada polislərimizin xaricdə keçdiyi təcrübənin də rolu var"*

Dünyada çox sürətlə cinayətkarlıq inkişaf edir, buna qarşı mübarizə üçün isə yeni üsul və metodlar tapılır. Bu baxımdan, Azərbaycan polisinin treninqlərdə bu kimi yeni vərdişləri öyrənməsi və tətbiq etməsi çox vacibdir" - deyə bildirən Ə.Nuriyev qeyd etdi ki, polislərin bu cür treninqlərdə iştirakı həm də onların kibercinayətkarlıq sahəsində təcrübə qazanmasına səbəb olub.

Kibercinayətkarlıqla bağlı vərdişlərin öyrənilməsinin mühüm olduğunu deyən Ə.Nuriyevin sözlərinə görə, bu amil polisin bugünkü və gələcək fəaliyyəti üçün də yeni imkanlar yaradır. "Ona görə də bu prosesin daha da dərinləşdirilməsinin və genişləndirilməsinin tərəfdarıyam" - deyə Ə.Nuriyev vurğuladı.

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi 1988-ci ildə ermənilərin Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları ilə başlayıb. Sovet İttifaqı rəhbərliyində təmsil olunan ermənilər, Ermənistan SSR-in rəhbərliyi və xaricdəki erməni diasporu 1980-ci illərin sonlarından etibarən SSRİ-nin mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edərək Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi üçün fəaliyyətə başladılar.**

# Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

1991-ci ilin sonu - 1992-ci ilin əvvəlində münaqişənin hərbi mərhələsi başlandı. Sovet İttifaqının parçalanması və Azərbaycanda daxili çəkişmələr nəticəsində yaranmış siyasi qeyri-sabitlikdən istifadə edərək, Ermənistan xarici hərbi yardımla Dağlıq Qarabağda hərbi əməliyyatlara start verdi.

1992-ci ilin fevral ayında Xocalı şəhərində azərbaycanlı əhaliyə qarşı misli görünməmiş qırğın törədildi. Xocalı soyqırımı kimi tanınmış bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, yaxud əsir düşməsi ilə nəticələndi, şəhər yerlə-yeksan edildi.

Artıq 30 ilə yaxındır ermənilər tarixi Azərbaycan ərazilərini işğal altında saxlayırlar. Heç bir hüquqi əsası olmadan Azərbaycan torpaqlarına iddialı olan işğalçı dövlət hələ də bu niyyətindən əl çəkmir. Tarixən başqa ölkələrin ərazisində məskunlaşan ermənilər tayfa halında məskunlaşdıqları ərazilərdə daim torpaq iddiasında olublar. Məhz bunun nəticəsidir ki, ermənilər bu vaxta qədər bir neçə ölkənin ərazisindən elə torpaq iddiasına görə qovulublar. Sonda isə onlar Çar Rusiyasının köməkliyi ilə Azərbaycan ərazilərinə köçürülüb. Nəticədə mənfur niyyətli ermənilər Azərbaycan ərazisində məskunlaşa-məskunlaşa yaşadıqları ərazilərdən azərbaycanlıları müəyyən bəhanələrlə uzaqlaşdırmağa cəhd ediblər. Azərbaycan torpağında məskunlaşan ermənilər zaman keçdikcə hiyləgərliklə ərazilərimizi dolayısı yollarla ələ keçirməyə başlayıblar. Tarixən Azərbaycanın geostrateji mövqeyi, zəngin təbii sərvətləri regionda maraqları olan qüvvələri azərbaycanlıların öz tarixi torpaqlarından zorla köçürülməsinə sövq etmiş, ermənilərin daha çox torpaq əldə etmək cəhdləri isə bir əsrdə 4 dəfə azərbaycanlıların öz doğma yurdlarından didərgin salınması ilə nəticələnib.

Ermənistanın 1988-1991-ci illərdə planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində tarixən bu ərazidə yaşamış 250 min azərbaycanlı öz doğma yurdlarından zorla qovularaq Azərbaycana pənah gətirdi, 1992-1993-cü illərdə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının 20 faizi - Dağlıq Qarabağ, eləcə də ona bitişik olan 7 rayonun ərazisi işğal olundu, 1 milyon nəfərədək azərbaycanlı öz doğma yurdunda məcburi köçkünə çevrildi.

Dağlıq Qarabağ probleminin ədalətli şəkildə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə nail olmaq üçün beynəlxalq aləmdə aparılan təbliğat işi böyük önəm kəsb edir. Nəzərə almaq lazımdır ki, Dağlıq Qarabağı öz tərkibinə birləşdirmək istəyən ermənilərin dünyada apardıqları təbliğat əleyhimizə yönələrək saxta faktlara əsaslanır. Təəssüflər olsun ki, ermənilərin yalan üzərində qurulan iddiaları dünyada geniş yayılmaqdadır. Lakin müstəqillik əldə etdikdən sonra Azərbaycanın təbliğat sahəsində gördüyü işlər bu istiqamətdə mühüm irəliləyişlərin olduğunu təsdiqləyir. Xatırladaq ki, Ümummilli Lider Heydər Əliyev dünyanın müxtəlif dövlət başçıları ilə keçirdiyi çoxsaylı görüşlərdə, beynəlxalq və yerli qurumların tədbirlərində mütləq şəkildə Dağlıq Qarabağ probleminə toxunaraq onu ölkəmizin bir nömrəli problemi adlandırırdı. Məhz Heydər Əliyevin diplomatiyası sayəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti, Azərbaycanın haqq səsi dünya ictimaiyyətinə çatdırıldı, Ermənistanın təcavüzkar siyasəti ifşa edildi.



1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən münaqişənin siyasi həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması ilə bağlı 4 qətnamə qəbul edildi. Prezident İlham Əliyev də uzun illərdir beynəlxalq hüquq normalarından çıxış edərək, Azərbaycanın ədalətli mövqeyini dünya ictimaiyyətinə çatdırır. Buna rəğmən, dövlətin müxtəlif strukturları da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə müntəzəm çatdırılması ilə bağlı müvafiq tədbirlər həyata keçirirlər. Bu sahədə görülən işlərin miqyası günü-gündən artır və müsbət nəticələr ortaya çıxır. Dövlət başçısının uğurlu xarici siyasəti nəticəsində artıq dünya ictimaiyyəti Azərbaycan həqiqətlərini qəbul edir və atılan addımlar öz səmərəli töhfələrini verir. Ölkə başçısı xarici dövlətlərə səfərləri zamanı keçirdiyi görüşlərdə, nüfuzlu beynəlxalq qurumların tribunalarından etdiyi çıxışlarında , eləcə də Azərbaycanda təşkil olunan beynəlxalq tədbirlərdə Dağlıq Qarabağ probleminin yaranma səbəbləri və onun aradan qaldırılması yollarını dəfələrlə şərh edib.

Azərbaycan hakimiyyəti erməni şovinist millətçilərinin soydaşlarımıza qarşı törətdikləri cinayətlərin, o cümlədən, Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Əsl həqiqətlərin dünyaya çatdırılmasında maraqlı olan Azərbaycan tərəfi Ermənistandan və erməni millətçilərindən fərqli olaraq, bu məsələdən hər hansı dividendlər güdmür. Azərbaycanın məqsədi tarixi ədalətin bərpasına nail olmaq, məlum olan cinayətkarları beynəlxalq səviyyədə ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Bu gün hər bir azərbaycanlının, qanında, canında vətən sevgisi olan hər bir kəsin qarşısında duran ən əsas vəzifələrdən biri Azərbaycan hakimiyyətinin bu istiqamətdə həyata keçirdiyi işlərə dəstək verərək, Xocalı soyqırımı barədə əsl həqiqətlərin dünyaya çatdırılmasına, faciəyə beynəlxalq müstəvidə siyasi-hüquqi qiymətin verilməsinə nail olmaqdır. Müdhiş faciənin ildönümü hər il ölkəmizdə və onun hüdudlarından kənarda yaşayan soydaşlarımız tərəfindən ürək ağrısı ilə qeyd olunur. Həmin gün dünyanın bir çox ölkəsində Xocalı faciəsinin qurbanlarının xatirəsi anılır, müxtəlif aksiyalar, mitinqlər keçirilir. Azərbaycan Prezidenti İlham Əliyevin Xocalı soyqırımının ildönümü münasibətilə xalqa müraciətlərindən birində azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasətinin beynəlxalq ictimaiyyətə çatdırılması üçün davamlı və ardıcıl fəaliyyətin vacibliyi qeyd olunur: "Bu gün dövlətin rəsmi qurumlarının ilə yanaşı, bütün vətəndaşlarımız, geniş ictimaiyyət Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasəti haqqında həqiqətlərin və faktların dünya parlamentlərinə, beynəlxalq ictimaiyyətə çatdırılması üçün ardıcıl və davamlı fəaliyyət göstərməlidir. Bu istiqamətdə görülən işləri razılıqla qeyd etməklə yanaşı, onu da bildirmək istərdim ki, tədbirlər daha əhatəli, planlı şəkildə aparılmalı və əlaqələndirilməlidir".

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixinə nəzər salsaq, aydın görə bilərik ki, düzgün informasiya siyasəti, vətəndaş həmrəyliyinin təmin olunması mühüm əhəmiyyətə malik məsələlərdir. 1990-cı illərin əvvəllərində Azərbaycan informasiya blokadasından böyük əziyyət çəkib, baş verən hadisələr dünya ictimaiyyətinə birtərəfli qaydada, ermənilərin xeyrinə çatdırılıb. Sonrakı illərdə Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ümumdünya informasiya məkanında əlverişli mövqe əldə etmək, əsl həqiqətləri dünyaya çatdırmaq və Ermənistanın işğalçı siyasətini dünyanın qınaq hədəfinə gətirmək mümkün olub.

Azərbaycan üçün vacib olan işğal altındakı torpaqların geri qaytarılmasıdır. Aprel və Günnüt zəfərləri göstərdi ki, Azərbaycan bu məsələnin əbədi olaraq problemli qalmasında maraqlı deyil.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələnin kardinal şəkildə siyasi gündəliyə gətirilməsi həmsədr ölkələrin hakimiyyətinin siyasi iradəsinə bağlıdır. Biz uzun illər Minsk Qrupu həmsədrlərinin problemin həlli ilə bağlı ciddi təşəbbüs irəli sürməsinin şahidi olmadıq. Ona görə də ATƏT-in Minsk Qrupu Azərbaycan hakimiyyəti və ayrı-ayrı siyasi ekspertlər tərəfindən dəfələrlə tənqidə məruz qalıb. Təəssüf ki, Minsk Qrupunun fəaliyyəti problemi həll etməyə yox, danışıqları sonsuza qədər uzatmağa xidmət edir. Hazırkı mərhələdə Ermənistan qeyri-konstruktiv mövqe tutur. Bəllidir ki, dünyada Ermənistanın saxtakarlığına, terrorçuluğuna, bir sözlə, işğalçılıq siyasətinə açıq-aşkar dəstək verən dövlətlər, beynəlxalq təşkilatlar da var. Məsələnin maraq doğuran tərəfi budur ki, həmin dövlətlər və təşkilatlar erməni millətinin kimliyini, onların tarix boyu göstərdikləri riyakarlıqları çox yaxşı bilirlər, hətta ermənilərin özlərindən də yaxşı bilirlər. Çünki onların havadarları öz çirkin niyyətlərini həyata keçirmək üçün hər zaman erməni adından, lobbisindən istifadə ediblər və istifadə etməkdə davam edirlər. Prezident İlham Əliyev bütün beynəlxalq təşkilatlarda Dağlıq Qarabağ probleminin həllinə toxunur, məcburi köçkünlərimizin əminanalıq və sülh şəraitində öz doğma yurd-yuvalarına qayıtmasını xüsusi vurğulayır. Dünya ictimaiyyətinə aydındır ki, danışıqlarda Azərbaycanın konstruktivlik nümayiş etdirməsi, problemin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması istəyi dövlətimizin öz tarixi torpaqlarını geri qaytarmaq üçün haqlı yanaşmasıdır. Azərbaycanın uğurlu və məqsədyönlü xarici siyasəti nəticəsində artıq dünya ictimaiyyəti Azərbaycan həqiqətlərini qəbul edir.

***Namiq QULİYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün çap olunub.**

# İnternetin sürətinə görə dünyada 6 pillə geriləmişik

**Azərbaycan internetin sürətinə görə "Worldwide broadband speed league 2019" reytinqində ötən illə müqayisədə 6 pillə geriləyərək 141-ci yerdə qərarlaşıb. 207 ölkənin yer aldığı reytinqin ilk pilləsinə Tayvan layiq görülüb. 2018-ci ildə internetin sürəti 28,09 Mbps olan və 200 ölkə arasında reytinqdə 14-cü yeri tutan Tayvanda hazırda internetin sürəti 85,02 Mbps təşkil edir.**

*"Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən genişzolaqlı internetin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər yetərincə deyil"*

***Osman Gündüz:** "Özəl və dövlət provayderləri üçün dövlət resurslarından istifadə ilə bağlı bərabər imkanlar yaradılmalıdır"*



Qeyd edək ki, siyahının ilk beşliyini Sinqapur (70,86 Mbps), Cersi (67,46 Mbps), İsveç (55,18) və Danimarka (49,19) bölüşürlər.

Məlumat üçün bildirək ki, Azərbaycan ötən il bu siyahıda 2,56 Mbps sürətlə 135-ci yerdə qərarlaşmışdı. Bu il ölkədə internetin sürəti 3,03 Mbps-ə çatdırılsa da, ölkə reytinqdəki mövqeyini itirərək 141-ci olub.

Danılmaz faktdır ki, Azərbaycanda internetin sürəti olduqca zəifdir. Bu faktı ölkəmizə qonaq kimi gələn xarici turistlər də təsdiq edirlər.

Maraqlıdır, necə etmək olar ki, Azərbaycanda internetin sürəti yüksəlsin?

**İnternetin sürətinə görə Azərbaycanın ötən illə müqayisədə 6 pillə geriləyərək 141-ci yerdə qərarlaşmasına münasibət bildirən İKT sahəsi üzrə mütəxəssis Osman Gündüz "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən genişzolaqlı internetin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər yetərincə deyil:** "Genişzolaqlı internetin inkişafı üçün ciddi addımlar atılmalı idi.

Məlumdur ki, Azərbaycanda iki dövlət provayderi var. Bununla yanaşı, 30-40-a yaxın provayder də mövcuddur. Genişzolaqlı internetin inkişafı ilə əlaqədar olaraq ancaq dövlətə məxsus olan "Baktelecom" və "Aztelecom" layihələr həyata keçirə bilir. Qalan provayderlərə isə aidiyyəti qurumlar tərəfindən şərait yaradılmır. Belə olan halda, Azərbaycan internetinin reytinq göstəricisi geriləyir. Vəziyyət bu cür davam edərsə, Azərbaycanın adı internetin sürətinə görə daha da geriləyə bilər".

**Həmsöhbətimizin sözlərinə görə, özəl və dövlət provayderləri üçün dövlət resurslarından istifadə ilə bağlı bərabər imkanlar yaradılmalıdır.**

Ekspert hesab edir ki, "Aztelecom" və "Baktelecom"un mövcud resurslarına arxalansaq, bizə Bakıətrafı və regionlarda keyfiyyətli internet infrastrukturu qurmaq üçün on illər lazım olacaq.

***Günel CƏLİLOVA***

# Bütün rayonlarda bağça uşaqlarına eyni rasion qidalar vermək yanlış imiş...

**Bu gün uşaq bağçalarında uşaqların qidalanması üçün eyni qida verilir. Ölkənin bütün bağçalarında körpələrin qidalanması üçün standart menyu təyin olunub. Artıq neçə ildir bu qayda davam edir. Ancaq bildirilir ki, ölkənin bütün regionlarında uşaq bağçalarına eyni qida verilməməlidir.**



***Aynur Hüseynova:** "...elə ardıcıllıq qurulmalıdır ki, uşaqlar lazımi kalorini ala bilsinlər"*

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli media nümayəndələrinə açıqlamasında bildirib ki, respublika ərazisində 1600 uşaq bağçası fəaliyyət göstərir, qurum tərəfindən seçim yolu ilə 400 belə bağçada monitorinq aparılması planlaşdırılıb: "Məqsəd böyüməkdə olan nəsli sağlam qida ilə təmin etməkdir. Artıq Səhiyyə Nazirliyi tərəfindən qidalanma rasionu işlənib hazırlanıb və Nazirlər Kabinetinə təqdim olunub. Yəqin ki, bu sənəd təsdiqini tapacaq. Sənəd təsdiqləndikdən sonra onun bağçalarda tətbiqinə başlanacaq.

Azərbaycanın bütün regionlarında bağçalara eyni qidanın verilməsi düzgün deyil. Çünki bəzi regionlarda yod çatışmazlığı, bəzilərində isə dəmir çatışmazlığı var. Dəmir çatışmazlığı əsasən qız uşaqlarında müşahidə edilir. Ümumdünya Səhiyyə Təşkilatının açıqlamasına görə, 2017-ci ildə Azərbaycanda qadınlar arasında dəmir defisitli anemiya 44 faiz təşkil edib".

Ekspertlər də hesab edir ki, uşaq bağçalarının hər birinə eyni qida verilməməlidir. Çünki hər bölgənin özünəməxsus vitamin çatışmazlığı olduğu üçün, bağçalarda uşaqlara verilən təamlara nəzərət etmək lazımdır.

**Pediatr Aynur Hüseynova bizimlə söhbətində qeyd etdi ki, məktəbəqədər təhsil müəssisələrinin ərzaq təminatı ilə bağlı müəyyən problemlər mövcuddur:** "Bu günə qədər 1994-cü ilin 9 martında Nazirlər Kabinetinin təhsil ocaqlarında qida rasionunun müəyyənləşdirilməsi ilə bağlı qərarı olub. Həmin qərara 2012-ci ildə dəyişiklik edilib. Orada da müəyyən olundu ki, yaşa görə kalori qərarlaşdırılsın. Uşaqların qidalanması yaş kateqoriyasına görə fərqlənir. Uşaq evi, körpələr evi - bunlar tamam fərqli yaş qruplarına aid uşaqları özündə birləşdirir. Hər bir uşağın yaş kateqoriyasına görə qida rasionu var".

*"Elə yer var, orada yod, başqa bir ərazidə dəmir çatışmazlığı yaşanır, bütün bunlar nəzərə alınaraq bölgələr üzrə xüsusi menyu təyin olunmalıdır"*

Həmsöhbətimiz onu da əlavə etdi ki, bağçalarda uşaqlara verilən meyvə, şirə, çörək, ət, tərəvəz, süd və s. məhsullar üzrə normalar artırılmalıdır. Bundan başqa, menyuda əti əvəz edən məhsullar, məsələn, lobya, mərci və s. də olmalıdır. Eyni zamanda, menyu yeknəsəq olmamalı, elə ardıcıllıq qurulmalıdır ki, uşaqlar lazımi kalorini ala bilsinlər. Elə yer var, orada yod, başqa bir ərazidə dəmir çatışmazlığı yaşanır. Bütün bunlar nəzərə alınaraq bölgələr üzrə xüsusi menyu təyin olunmalıdır".

Həmsöhbətimiz onu da vurğuladı ki, uşaqların sağlam qida ilə təmin olunması vacibdir. Onlara kimyəvi qatqılarla zəngin olan təamlar deyil, təbii tərkibli qidalar verilməlidir.

***Günel CƏLİLOVA***

# Luvrdakı Azərbaycan xalçalarında şübhəli nə var ki, erməniləri iştahlandırıb...

**Dünyanın bir çox məşhur muzeyinin ekpozisiyasında nümayiş olunan Azərbaycan xalçaları seyrçilərin çox maraq göstərdikləri eksponatlar sırasına daxildir. Amma təəssüf ki, bir çox hallarda xalçalarımızın təqdimatında müəyyən yanlışlıqlar olur. Bildiyimiz kimi, bəzi populyar muzeylərdə xalçalarımız əsasən Qafqaz və İran xalçası kimi təqdim edilir.**

Bu da onu göstərir ki, hələ də bizim mədəniyyətimizə qarşı qərəzli mövqedə olanlar var.

Azərbaycan xalçaları Fransanın məşhur Luvr muzeyinin ekspozisiyasında da nümayiş olunur. Luvr ekspozisiyasında sərgilənən xalçalarımız növbəti erməni saxtakarlığı ilə qarşılaşıb. Bakının evsahibliyi ilə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində təşkil olunan "Azərbaycan mədəni irsi Luvr muzeyində" adlı sərgidən ermənilər sui-istifadə etməyə cəhd göstəriblər. Tarixən mədəni dəyərlərimizə qarşı iddialar irəli sürən ermənilər ekpozisiyada nümayiş olunan üç qədim Azərbaycan xalçasında "erməni mədəniyyətinin izləri" olduğunu qeyd edirlər.

Əlbəttə, erməni mətbuatı bu məsələdə, həmişə olduğu kimi, yenə də canfəşanlıq göstərir. Onlar iddia edirlər ki, sərgidə nümayiş olunan 3 xalça üzərində xaç işarələri "ermənilərə aiddir". Bu xalçaları erməniləşdirməyə cəhd göstərənlər, əslində, xaç işarəsinin türk mədəniyyəti ilə bağlı olduğunu unudurlar.

Ermənilərin Azərbaycan xalçalarına qarşı irəli sürdüyü xaç iddiasının nə kimi əsası ola bilər? Ermənilər bizim xalçaları niyə mənimsəmək istəyirlər? Yeri gəlmişkən bildirək ki, xaç işarəsinin ermənilərlə heç bir əlaqəsi yoxdur.

**Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, folklorşünas İlhamə Qəsəbova "Bakı-Xəbər"ə bildirdi ermənilərin xalçalarımızdakı xaç işarələrini erməniləşdirməsi absurddur.** Bunun heç bir tarixi, mədəni əsası olmadığını deyən folklorşünasın sözlərinə görə, xaç qədim türklərin dünya haqqında təsəvvürlərindən yaranmış model, günəşin müqəddəs simvolu idi. O qeyd etdi ki, xaç işarəsi Azərbaycan xalqının əcdadları tərəfindən yaradılıb və Azərbaycanın maddi-mədəni dəyərləri sırasına daxildir. "Araşdırmalar göstərir ki, xaçların yaranmasında hələ xristianlıqdan çox-çox qabaq qədim türk tayfalarının böyük rolu olub. O zamankı insanların günəş obrazını yerdə, torpaq üzərində yaradaraq, ağac, daş üzərində yüksəyə qaldıraraq yenidən göylərə qovuşdurmaq istəyi xaçların indiki formasının meydana gəlməsinə səbəb olub. Məhz buna görə də xaç işarələri xalçalarımızda, qədim daş abidələrimizdə, qayaüstü rəsmlərimizdə öz əksini tapıb. Ermənilərin bizim xalçaların üzərindəki xaç işarələrinə görə onlara iddia etməsinin, onları erməniləşdirməyə cəhd göstərməsinin heç bir əsası yoxdur" - deyə alim qeyd etdi.

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutundan isə bildirilənə görə, ermənilər xalçalarımızın üzərindəki xalçaları "erməniləşdirməyə" cəhd göstərməsi qəbuledilməzdir. "Xalçanı hələ e.ə. II əsrdən toxuyublar", "carpet beynəlxalq sözü əslində erməni sözüdür" kimi cəfəng fikirlər səsləndirən ermənilərin bu iddiasına o qədər də təəccüblənmək lazım deyil".

**"Azərilmə" Xalçaçılıq Mərkəzindən isə "Bakı-Xəbər"ə verilən məlumata görə, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Xalçaşünaslıq sektorunun müdiri, xalçaçı-ekspert, tarix üzrə elmlər doktoru, professor Vidadi Muradovun ermənilərin iddiasına münasibəti kəskindir.**

V.Muradov bildirib ki, Azərbaycan xalçaları Azərbaycan tarixinin tərkib hissəsidir: "Xalçalarımız tariximiz, etnoqrafiyamız, mədəniyyətimizlə həmyaşıddır. Qafqazda xalçaçılığın xalqımızla bağlılığı danılmaz faktdır. Xalçaçılıq Azərbaycanın təbiəti, əhalimizin təsərrüfat imkanları, xalqımızın müxtəlif sənət sahələrində nümayiş etdirdiyi istedadı və bacarığı ilə bağlıdır.

Azərbaycan xalçaçısı bunu öz təfəkkürü, dünyagörüşü, mifologiyası ilə bağlı olan naxışlarla, ornamentlərlə toxuyub. Böyüklü-kiçikli bütün elementləri türklükdən qaynaqlanan, türk boylarının rəmzlərindən, işarələrindən ibarət olan Azərbaycan xalçasına ermənilərin iddiası cəfəngiyyatdan başqa bir şey deyil. Zənnimcə, dünyamız qarşılıqlı elmi, mədəni, siyasi, iqtisadi mübadilə üzərində köklənibsə, ermənilər də tarixən bu mübadilədən "kifayət qədər" yararlandıqlarını, xalça toxumağı (və yalnız toxumağı!) Azərbaycan türklərindən öyrəndiklərini artıq etiraf etməli, yersiz hədə-qorxulara, xalçalarımız üzərində əsassız "erməni xaçı", uydurma "Artsax dövləti"nin sərhədləri və bu kimi erməni simvolizmləri axtarışlarına son qoymalıdırlar" - deyə bildirən V.Muradov deyib ki, dünyanın ən məşhur muzeylərində, kolleksiyalarında qədim Azərbaycan xalçaları və xalça məmulatları nümayiş olunur: "UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Luvr muzeyindən ölkəmizə gətirilən bu üç xalça XVIII əsrin sonu - XX əsrin əvvəllərinə aid Qarabağ xalçaçılıq ənənələrini əks etdirir. Bunlardan ikisi inkişafı bilavasitə Azərbaycan xalçaçılığı ilə əlaqədar olan "Əjdahalı" xalçasının törəmələri, biri isə tarixən Aran Qarabağda, daha doğrusu, Ağdamın Şıxbabalı kəndində toxunan xalçadır. Göstərilən tarixi mərhələ Azərbaycan xalçaçılığının ən məhsuldar dövrlərindəndir. XVIII əsrin sonundan etibarən Azərbaycanda bu və digər xalça çeşniləri əsasında böyük ustalıqla saysız-hesabsız xalçalar toxunub. İndi də bu tarixi ənənə uğurla davam etdirilir, yaşadılır, xalçaçılıq nəinki mədəniyyətimiz, eyni zamanda, iqtisadiyyatımızın da aparıcı sahələrindən birinə çevrilir. Biz azərbaycanlılar xalçaçılığı heç bir səs-küy olmadan, əlavə canfəşanlıq göstərmədən, "bizimdir, bizimdir!" deyərək yox, xalçaya xalçaçı kimi yanaşaraq yaşadırıq" - deyə o qeyd edib.

**Əməkdar incəsənət xadimi, tanınmış sənətşünas Ziyadxan Əliyev də bizimlə söhbətində ermənilərin iddiasının absurd olduğunu dedi.** İndiyə qədər özünün heç bir mədəni dəyəri olmayan ermənilər tarix boyu Şərq xalqlarının, əsasən türklərin mədəniyyətini oğurlamaqla məşğul olublar. "Ermənilərin bizim xalçalara və onların üzərindəki xaç işarələrinə iddia etməsinin kökündə həm onların saxtakarlığı, oğurluğa meylli olması, həm də öz tarixlərini bilməməsi dayanır. Əslində, ermənilər mənşəyi məlum olmayan bir toplumdur. Ermənilər harada xaç işarəsi görürlərsə, dərhal onun onlara aid olduğunu iddia edirlər. Halbuki, xaç və digər damğaların, simvolların qədim türk mədəniyyəti nümunəsi olduğu məlumdur. Xaç işarəsinin ermənilərlə heç bir əlaqəsi yoxdur. Bu səbəbdən də ermənilərin xaça heç bir iddiası olmamalıdır. Bu, qədim türklərə aid bir işarədir, damğadır. Xaç işarəsi bizim bütün mənbələrimizdə də var, bütün qədim maddi mədəniyyət nümunələrinin üzərində əks olunub. Xaç bizimdir, bunun ermənilərə heç bir aidiyyəti yoxdur".

Z.Əliyev qeyd etdi ki, vaxtilə bizim başısoyuqluğumuz sayəsində ermənilər alban mədəniyyətini də mənimsəməyə başladılar. O vurğuladı ki, keçən əsrin 60-cı illərində abidələr inventarlaşdırılarkən bizimkilər harada xaç gördülər "bizim deyil" dedilər. "Tarixi bilməyən adamlar elə bildilər ki, biz elə yaranışdan müsəlman olmuşuq. O vaxtdan da alban memarlığını ermənilər mənimsəməyə başladılar. İndi də bu iddialarını davam etdirirlər" - deyə Z.Əliyev qeyd etdi.

*İradə SARIYEVA*



***İlhamə Qəsəbova:*** *"Ermənilərin bizim xalçaların üzərindəki xaç işarələrinə görə onlara iddia etməsinin, onları erməniləşdirməyə cəhd göstərməsinin heç bir əsası yoxdur"*

***Ziyadxan Əliyev:*** *"Ermənilərin bizim xalçalara və onların üzərindəki xaç işarələrinə iddia etməsinin kökündə..."*

***Vidadi Muradov:*** *"Böyüklü-kiçikli bütün elementləri türklükdən qaynaqlanan, türk boylarının rəmzlərindən, işarələrindən ibarət olan Azərbaycan xalçasına ermənilərin iddiası cəfəngiyyatdan başqa bir şey deyil"*



Eyyub Hüseynov: *"Bu tip faktla qarşılaşan şikayətçilər aidiyyəti qurumlar və Birliyə müraciət etməlidirlər"*

# "Neptun" mağazalarında "şuruplu bulka"?

## *"Neptun" supermarketi: "Marketdə satılan bütün məhsullar vitrinə qoyulana kimi bir neçə nəzarətçi tərəfindən yoxlanılır"*

**Sosial şəbəkədə paytaxtda fəaliyyət göstərən marketlərin birində satılan bulkanın üzərində şurup olan görüntülər yayılıb.**

Sosial şəbəkə istifadəçisi qeyd edir ki, o həmin un məmulatını Bakıdakı "Neptun" supermarketindən alıb. Lakin sonra ona məlum olub ki, bulkanın üzərində dəmir şurup olub. Yayılan qəbz fotoda açıq-aşkar göstərilir ki, bulka iyulun 8-də alınıb və həmin un məmulatının satış qiyməti 60 qəpikdir.

Məsələnin təfərrüatını öyrənmək üçün "Neptun" supermarketi ilə əlaqə saxladıq. Marketin nümayəndəsi bildirdi ki, supermarketdə satılan bütün məhsullar vitrinə qoyulana kimi bir neçə nəzarətçi tərəfindən yoxlanılır, daha sonra satışa verilir: "Görüntülərdəki real bir şey deyil. Hər hansı bir antireklam olaraq təxribat da ola bilər. Bundan başqa, həmin məhsulun adı açma kaşarlı deyil. Burada ziddiyyətli məsələlər çoxdur".

**Məsələ ilə bağlı məlumat verən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov belə hallarla qarşılaşan şikayətçilərin onlara müraciət etməsini tövsiyə edir.** Bir şərtlə ki, alıcı həmin məhsulu haradan aldığına dair məlumat və faktı olduğu kimi təqdim etsin. Bundan sonra E.Hüseynov əmin edir ki, vətəndaşa dəymiş zərər ödəniləcək: "Həmin şirkəti antireklam kampaniyasına yerləşdiririk, vətəndaş istəyərsə, dövlət orqanlarını həmin şirkətə yoxlanışa qaldırırıq".

*Günel CƏLİLOVA*

# Bakıda kafe və restoranlara indi də "firma pendir" adları qoymağa başlayıblar...

**Bu gün ictimai iaşə obyektlərinin yalnız sanitar-gigiyenik vəziyyəti deyil, onlara verilən adlar da müzakirə mövzusuna çevrilib. Ümumiyyətlə, mağazalara, restoran və kafelərə verilən adlar çox zaman standartlara uyğun gəlmir. Bir vaxtlar tarixi şəxsiyyətlərimizin, qədim şəhərlərimizin, hətta işğal altında olan ərazilərimizin adları verilirdisə, indi obyekt sahibləri başqa bir yol tutublar.**

*"Xarici ölkələrə aid pendir çeşidlərinin adlarının ictimai iaşə obyektlərinə verilməsi düzgün deyil"*

Qara Məşədiyev: *"Öz dilimizdə ictimai iaşə obyektlərinə veriləcək kifayət qədər ad olduğu halda, çox təəssüf ki, bunu bəziləri nəzərə almaq istəmir"*



Paytaxtda bir sıra ictimai iaşə obyektlərinə xarici ölkələrdə istehsal edilən pendir adları verilir. Məsələn, şəhərimizdə "Macerello", "Suluqunu" kimi adlar daşıyan ictimai iaşə obyektləri fəaliyyət göstərir. Bu kimi hallar da ictimai iaşə obyektlərinə adların verilməsi sahəsində ciddi nöqsanların olduğunu üzə çıxarır.

Qeyd edək ki, "Macerello" italyan xalqına, "Suluqunu" isə gürcülərə aiddir. Hər iki pendir növü dünyada çox məşhurdur.

Azərbaycan dilinin işləkliyinin bütün sferalarda tətbiq edilməsi ilə bağlı rəsmi dövlət sənədinin olmasına baxmayaraq, hələ də bəzi sahibkarlar bu sənədin əhəmiyyətini nəzərə almaq istəmirlər.

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, professor Qara Məşədiyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan dilinin işləkliyinin təmin olunması olduqca vacibdir və bu qaydalara əməl etmək hər bir sahibkarın borcudur.** "Öz dilimizdə ictimai iaşə obyektlərinə veriləcək kifayət qədər ad olduğu halda, çox təəssüf ki, bunu bəziləri nəzərə almaq istəmir. Ümumiyyətlə, restoranlara, şadlıq evlərinə, otellərə, eləcə də digər ictimai iaşə obyektlərinə milli adların verilməsini tövsiyə edərdim. Əlbəttə, ictimai iaşə obyektlərinə gəlmə adların qoyulmasını uyğun hesab etmək olmaz. Biz bunu qəbul etmirik. Həmişə çalışmalıyıq ki, bu cür obyektlərə özümüzə aid adlar qoyulsun. Həmin ictimai iaşə obyektinin pendir satışı ilə heç bir əlaqəsi yoxdursa, ora pendir adlarının verilməsi düzgün deyil. Xarici ölkələrə aid pendir çeşidlərinin adlarının ictimai iaşə obyektlərinə verilməsi düzgün deyil. Biz mümkün qədər başqa xalqlara məxsus adlardan, ənənələrdən uzaq durmalıyıq. İctimai iaşə obyektlərinin adları ana dilimizdə olmalıdır. Sahibkarlar öz obyektlərinə ad qoyarkən mütləq mənada ana dilimizin tələblərini və xüsusiyyətlərini nəzərə almalıdırlar. Amma çox təəssüf ki, bəziləri bunu nəzərə almaq istəmir" - deyə Q.Məşədiyev bildirdi.

*İradə SARIYEVA*




# "Azercell"dən korporativ müştərilərə veb-sayt yaratmaq fürsəti!

**Müasir texnologiyalar və rəqəmsal həllərin tətbiqi ilə müştərilərin gündəlik və işgüzar həyatını daha da rahat etməyi hədəfləyən "Azercell Telekom" bu sıradan olan daha bir yeniliyə imza atıb.**

Belə ki, şirkət dünyanın rəqəmsal xidmətlərini korporativ müştərilərinə əlçatan etmək məqsədilə kiçik və orta sahibkarlar üçün "Business Web" - veb-sayt yaratma xidmətini istifadəyə verib. Bu xidmət vasitəsilə "Azercell" korporativ müştərilərinə öz bizneslərini veb-sayt kimi rəqəmsal ünsiyyət vasitəsinin köməyilə inkişaf etdirməkdə dəstək olacaq.

Bulud texnologiyaları üzərindən çalışan "Business Web" xidməti çərçivəsində təklif edilən sayt idarətmə həlli "Windows" və "Mac OSX" əməliyyat sistemlərini dəstəkləyir. Müxtəlif məzmunlu səhifələrin yaradılması üçün ayrı-ayrı tətbiqlərin mövcudluğu saytın idarə olunmasını daha sürətli və effektiv edir.

Yeni yaradılmış xidmət də daxil olmaqla, "Azercell"in korporativ abunəçiləri üçün geniş çeşiddə məhsul və həllər təklif etməsi onun etibarlı telekom tərəfdaşı kimi töhfəsini bir daha vurğulayır.

Korporativ abunəçilər business@azercell.com e-mail ünvanına müraciətlərini göndərməklə, "Azercell"in yaratdığı bu fürsətdən yararlana bilər. Yeni xidmət haqqında daha ətraflı məlumat üçün aşağıdakı linkə baxa bilərsiniz: https://www.azercell.com/az/corporate/busInessweb/

"Azercell" rəqəmsal dünyada sizin biznesinizin inkişafını dəstəkləyir!

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

# Bakı kəndləri - tarixlərə şahid qədim Qala kəndi...

**Bu baxımdan "xələfi" adlı Balaxanı neft qarışığı, Bibi Heybət, Qala (Qala kəndindəki "Pirvəro" adlı) neftli sahələrinin müalicəvi əhəmiyyəti daha çox olub. Bakı neftinin müalicəvi əhəmiyyəti barədə Marko Polo (XIII əsr ), Venetsiya səyyahı İocafato Barbara (XV əsr), İ.Lerx (XVIIIəsr) və s. müəlliflər olduqca qiymətli məlumatlar veriblər. İ.Lerx yazır ki, oynaq ağrıları zamanı, həmçinin daxili orqanlarda daş olarkən müəyyən miqdarda ağ neft içilir.**

*"Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür. Bizim borcumuz, gələcək nəsillərin borcu tarixi keçmişimizə, ənənələrimizə, milli nailiyyətlərimizə hörmət etməkdən, onları qoruyub saxlamaqdan ibarətdir".*

***Heydər Əliyev***





***(Əvvəli ötən saylarımızda)***

Bundan başqa, podaqra, sınqa, qıcolma tutmalarında da neftdən istifadə olunur. Heyvan xəstəlikləri zamanı, o cümlədən qoturluq, çiçək, damaq və s. zamanı qara neftdən sürtmə yolu ilə istifadə olunurdu.

Etnoqrafik sorğular göstərir ki, Abşeronda neftlə müalicə əhali arasında indi də saxlanmaqdadır. Qala kəndindəki "Pirvəro" neftli sahənin yüksək müalicəvi xüsusiyyətinə bələd olanlar, xüsusilə revmatizm (yel) xəstəliyi ilə əlaqədar oradakı neftli palçıqdan istifadə edilir. Bu məqsədlə ağrıyan yerlərə həmin palçıqdan sürtülür.

Abşeron əhalisinin məşğulluğunda, həmçinin Bakının Azərbaycanın digər bölgələri ilə, xarici dövlətlərlə əmtəə-mal mübadiləsində, əmtəə-ticarət əlaqələrində duz istehsalı da mühüm rol oynayıb. Burada duz cıxarılması, duz istehsalının tarixi eramızdan xeyli əvvələ qədərki dövrə aiddir. Bunu arxeoloji və tarixi faktlara müraciət etmədən belə, yarımadanın olduqca şor sulu Xəzər dənizi sahilində ərazidə şor sulu göllərin olması da sübut edir.

Orta əsr ərəb müəlliflərindən Məsudi Bakının xarici ticarətində duzun mühüm rol oynadığını qeyd edib. Əbd ər-Rəşid əl- Bakuvi yazır ki, Bakıda duz vətəgələri var, başqa ölkələrə satış üçün aparılan çox gözəl keyfiyyətli duz istehsal edilir. O dövrdə yüksək keyfiyyətli Abşeron duzu əsasən Xəzərlər ölkəsinə, İrana, Bizansa, Rusiyaya, Orta Asiyaya, İraqa, Suriyaya, Hindistana, Çinə və digər ölkələrə ixrac olunub.

1796-cı ildə Bakıda olmuş Marşall fon Biberşteyn yazırdı ki, neft kimi duz da Bakıya olduqca çox gəlir gətirir. XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində hər il Bakı xanının neft və duzdan gəliri təqribən 40000 min manat təşkil edib. Duz çıxarılması ilə azad muzdurlar məşğul idi. Əksər duz gölləri dövlət xəzinəsinin sərəncamında idi.

XIX əsrin ortalarında Abşeron yarımadasında irili-xırdalı təxminən 27 göl olub. Qala şorunungölünün uzunluğu 1 verst 125 sajen, çevrəsi 3 verst 300 sajen, duzun qalınlığı 1 düym idi. Qala duzu öz ağlığına görə ən keyfiyyətlilərdən hesab olunurdu. Qeyd etmək lazımdır ki, kəndin bəzi sakinləri hazırda da duz gölündən müəyyən xalq üsulları ilə məişətdə istifadə edirlər. Onların dediyinə görə, bu duzun həm keyfiyyəti, həm də dadı, tamı digər duzlardan qat-qat üstündür.

Bu duzlu sulu göllərdən əhali yay fəslində istifadə edərək çimərdi. Bu göllərin suyu, xüsusilə bir sıra dəri xəstəliklərinin müalicəsində əvəzsiz vasitə idi.

Abşeronun bu təbii milli sərvətinə biganə münasibət bu gün də davam edir. Mövcud duzlu sulu göllərin ekoloji-texniki, tibbi- sanitar cəhətdən yoxlanıldıqdan sonra ondan məişətdə və təbabətdə istifadənin bərpa olunması iqtisadi cəhətdən də dövlətə xeyli mənfəət gətirmiş olar. Son illərdə Abşeronun bir çox duz göllərində və Masazır gölünün təbii ehtiyatlarından səmaye üsullu istehsalın yaradılması bu istiqamətdə atılmış müsbət addım kimi qiymətləndirilməlidir. Qala duzunun keçmiş şöhrətinin bərpası bu istiqamətdə unudulmuş ənənələrin dirçəldilməsi olmaqla təqdirəlayiq hesab oluna bilər.

Sənətkarlıq. Abşeronda bir çox xammal mənbələrinin mövcud olması hələ ilk orta əsrlərdə müxtəlif sənət sahələrinin təşkilinə şərait yaradıb. Bunu həm arxeoloji materiallar, həm də tarixi məlumatlar təsdiq edir. İçərişəhər ərazisində aparılan arxeoloji qazıntılar zamanı əldə edilən maddi-mədəniyyət qalıqları göstərir ki, eramızın VIII-IX əsrlərində burada ayrı-ayrı sənət və peşə sahələri, o cümlədən dulusçuluq, toxuculuq, ipəkçilik, dəmirçilik, dabbaqlıq və s.xeyli inkişaf edib. Bunu Abşeronda XI-XV əsrlərdə inşa edilən və yüksək bədii sənətkarlıq nümunəsi olan tarixi-memarlıq abidələrinin timsalında da görmək olar. Belə ki, memarların, mahir bənnaların, daşyonanların, oymaçıların, xəttatların, dülgərlərin tikib düzəltdiyi, üzəriində bitki və həndəsi naxışlar, gözəl xətli yazılar nəqş etdiyi məscidlər, minarələr, mehrablar, pirlər, əzəmətli qala tikililəri, qəbirüstü abidələr və s. dediklərimizə sübutdur. Bu kimi tarixi-memarlıq abidələrinin üzərində əksərən onu tikən memarların, ustaların, oymaçı-xəttatların adları həkk olunurdu.

Vaxtilə Qala kəndində öz sənətinin bütün incəliklərinə bələd olan onlarla sənət, peşə adamları olub. Bunlardan dülgər Kərbəlayi Ümidəlini, Əbdüləlini, arababənd Fərhadı, bənnalardan usta Qədimi, Zərgər (ləqəbidir) Məmmədəlini, Məşədi Dərgahı, Yarəhmədi, Daşdəmiri, Əlivahabı, Məhəmməd Kərimi, Qüdrəti, cuna ustaları Hacı Zeynalı, Colay Nəcəfqulunu, özkəntoxuyan Bəşirmanafı misal göstərmək olar.

Abşeronda orta əsrlərdə XIII əsrə aid Mərdəkan dairəvi qalasının ( el içində "Şıx qalası") memarı Əbd-əl Məcidi, XIII əsrin II yarısı, XIV əsrin əvvəllərində yaşamış, Nardaranda qala, Bibi-Heybətdə minarə və məscid tikən İçərişəhərdəki Molla Nəsrullah məscidinin oymaçı xəttatı Məhəmməd əl-Arifi, dülgər və ağac oymaçısı Aşur ibn İbrahim Bakuvini, XIV əsrdə yaşamış Mahmud ibn Məsudu, Arif ibn Musa Cəbalı, memar Küstasif ibn Musanı, XV əsrdə Şirvanşahların türbəsini tikən memar Məhəmməd Əlini, Xoca Ruhulla karvansarasının (XVII əsr) ustası Burhani, Mərdəkandakı Pir Həsən pirinin (1612-1613) bənnası usta Yarəlinin oğlu Nadirəlini, Buzovnadakı məscidin ustası bənna Murad Əlini, həmçinin XVIII əsrin məşhur daşoymaçı xəttatların, şəbəkə ustalarından Seyid Tağını, Məmmədəli ibn Əmirəlini, Məhəmməd Saleh Qəzvinini, XVIII əsrdə Qala kəndində məscidlər tikmiş usta Məşədi Süleymanı, Əliqulu Əlyarı, XIX əsrdə Hövsanda məscid tikmiş usta Vaqifi, Şağanda məscid tikmiş usta Dost Məhəmmədi, 1916-1917-ci illərdə Binədə məscid tikən Heydər oğlu Sadıq Şağanini və s.usta və xəttatları qeyd edə bilərik.

Azərbaycan daşişləmə sənətinin tarixi bu ərazidə qədim insanın təşəkkül etdiyi ilk dövrlərə gedib çıxır. Bu cəhətdən Abşeron tarixi-etnoqrafik zonası da istisna təşkil etmir. Yarımadanın tarixən məşəlik ərazilərinin olmaması səbəbindən burada daş karxanaçılığı ənənələrinin tarixi əsrlərlə ölçülür. Daş karxanalarından çıxarılan əhəng daşları nisbətən yumşaq tərkibli və məsaməli olduğundan, ondan istənilən şəkildə və ölçüdə hörgü daşları hazırlamaq mümkün olub. Orta əsrlər dövründə daşyonma və daş üzərində oyma sənəti çox inkişaf edib.

Bu zaman Azərbaycan ərazisində məhəlli xüsusiyyətləri ilə fərqlənən bir sıra memarlıq məktəbləri meydana gəlir. Bu cəhətdən Şirvan-Abşeron memarlıq məktəbi daha çox fərqlənib. Bunu həmin dövrdə inşa edilən Bakıda Qız qalası, Şirvanşahlar sarayı, məscidlər, müşahidə və müdafiə qalaları, hamamlar, karvansaralar və s. tarixi-memarlıq tikililəri də sübut edir.

Abşeronun bir çox kəndlərində, o cümlədən Bibi-Heybətdə (Şatröz, Qarabədil, Badamdar, Güldər, Şahanbağ daş karxanaları), Binəqədidə (Aladağdaş karxanası), Maştağada (Xilinən karxanası), Əmircanda (Daşarası, Gülbəxt karxanaları), Şüvəlanda (Bəndüstü karxanası), Əhmədlidə, Biləcəridə, Zabratda, Nardaranda, Kürdəxanıda, Keşlədə və s. yerlərdə daş karxanaları var idi. Yüksək keyfiyyətli Abşeron ağ daşı (guşədaşı) 1852-ci ildə Moskvada Ümumrusiya sərgisində də nümayiş etdirilib və yüksək qiymətləndirilib.

Daşın çıxarılmasında və yonulmasında külüng, ling, gürz, daş baltası, iskənə, qələm-para kimi alətlərdən istifadə olunurdu.

Çəlləkçilik. Qədim tarixə malik olsa da, bu peşə XIX əsrin II yarısında məhz Bakıda çox böyük inkişafa, yüksəlişə çatır. Əvvəllər nefti də çəlləklərdə daşıyırdılar. Məhəllələrdə, döngələrdə, küçələrdə, həyətlərdə minlərlə çəlləkqayırma emalatxanası var idi. Sabunçu vağzalından Quba (Füzuli ) meydanınadək çəlləkçilər küçəsi uzanırdı.

XIX əsrin II yarısı - XX əsrin əvvələrində Bakı həm də sərraclıq sənətinin mərkəzlərindən sayılırdı. Burada qoşqu ləvazimatı hazırlayan onlarla sərrac emalatxanası fəaliyyət göstərirdi.

Vaxtilə Abşeronda gön-dəri məmulatı istehsalı dabbaqlıq peşəsi xeyli inkişafı edib. 1888-ci ildə Bakı quberniyasında 157 dabbaqxana qeydə alınıb. Bakının 1 May küçəsi ( indiki D.Əliyeva küçəsi ) "dabbaq palanı" adlanırdı.

Azərbaycan dünyanın ən qədim xalçaçılıq mərkəzidir. Azərbaycan xalçaları haqqında ilk məlumatlara e.ə. V əsrdə yaşamış qədim yunan alimi Ksenofontun əsərlərində rast gəlirik. Xalça məmulatlarından götürülmüş ornamentlərə epiqrafik abidələrdə, xüsusən də qəbir daşlarında tez-tez təsadüf edilir. Rus yazıçısı Lev Qumilyovun təbirincə desək:"Azərbaycan xalçaları sadəcə xalça deyil, yun kitabələrdir".

Azərbaycan xalçaçılığının Şirvan və Quba məktəbinin Bakı tipinə aid olan xalçalar yumşaqlığı, rənginin intensivliyi, özünəməxsus bədii zövq və zərifliyi ilə xarakterizə olunur. Bakı xalçalarının əsasını həndəsi motivli medalyon və rapportlu kompozisiya, stelizə edilmiş bitki elementləri təşkil edir."Bakı", "Suraxanı", "Goradil", "Fındığan", "Xilə-Əfşan", "Xilə-buta", "Abşeron" daha geniş yayılmış xalça kompozisiyalarındandır.

***Elxan MƏMMƏDOV***
***Tarixçi***

***(Ardı növbəti saylarımızda)***

№ 122 (4020) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

12 İYUL 2019-cu il

www.baki-xeber.com



# Dünyanın ilk robot rəssamı...

**İnnovasiyalı texnologiyalar sahəsində daha bir sensasiyaya imza atılıb. "AZƏRTAC" bildirir ki, ixtiraçı Eyden Meller dünyada ilk robot-rəssam yaradıb.**

İlk qadın proqramçı qrafinya Ada Lavleysin şərəfinə Ay-Da adlandırılan bu texnologiya möcüzəsinin əsərlərindən ibarət ilk sərgi Oksfordda keçirilir. Bildirilir ki, Ay-Da artıq 1 milyon dollardan çox pul qazana bilib. Eyden Meller jurnalistlərə müsahibəsində deyib: "Bütün zamanlarda rəssamların hamısının bir ümdə məqsədi olub: əsərlərində yaşadıqları cəmiyyətin gerçəkliyini əks etdirmək. Ay-Da isə bu gün istifadə etdiyimiz yüksək texnologiyaların əksidir". Ay-Danın gözlərində quraşdırılmış həssas kamera əşyanın təsvirini işləmək üçün onu kompüter "gözlərinə" ötürür. Sonra alqoritm rəsmin çəkilməsi üçün koordinatları müəyyən edir və onları tabloya köçürür. Nəticədə, fotorealist təsvirlər deyil, unikal rəsm əsərləri yaradılır.



## Bu 16 məqam sizi çox heyrətləndirəcək

**İnsan bədəni və psixologiyası çox sirli bir aləmdir. Və onun haqqında öyrənməli olduğumuz hələ çox məqamlar var. "Milli.Az" bu yazıda oxucuları məktəbdə öyrədilməyən və anatomiya dərsliklərində təqdim olunmayan maraqlı faktlarla tanış edir.**

Əlbəttə ki, aşağıda sadalananlar hər kəs üçün fərdidir, amma ümumilikdə təsirləri əsasən eynidir: 1. Əgər yuxusuzluq sizə əzab verirsə, sadəcə, bir dəqiqə ərzində gözlərinizi tez-tez qırpın. 2. Duşdan sonra soyuq suda yaxalanın. Bu, dəridə səpkiləri aradan qaldırmağa kömək edəcək. Soyuq su məsamələri daraldır və bakteriyaların ora daxil olmasına mane olur. 3. Əgər tualet istəyir və artıq dözə bilmirsinizsə, sadəcə seks haqqında düşünün. Ancaq yadda saxlayın ki, sidiyi uzun müddət saxlamaq olmaz, bu zərərli toksinlərin yenidən orqanizmə qayıtmasına səbəb ola bilir. 4. Əgər əhəmiyyətli çıxışdan əvvəl səhər tezdən durub məruzəni ucadan oxusanız, daha yaxşı yadınızda qalacaq. 5. Əgər elmi araşdırmalara inansaq, sağ qulaq insan nitqini daha yaxşı qəbul edir, sol isə musiqinin səslərini. 6. Əgər çarpayıda uzanarkən başgicəllənmə hiss edirsinizsə, bir ayağınızı döşəməyə uzadın. 7. Əgər güclü baş ağrısı hiss edirsinizsə, əllərinizi buzlu soyuq suya salın. 8. Qaşıntını sakitləşdirmək üçün ağcaqanad sancmasına quru dezodorant sürtün. 9. Əgər xroniki yorğunluqdan əziyyət çəkirsinizsə, tez-tez əsnəyir və ya yuxunuz gəlirsə, mümkün qədər nəfəsinizi saxlayın. 10. Əgər ən məsuliyyətli anda sizi gülmək tutubsa, sadəcə, özünüzü çimdikləyin. 11. Əgər ürəyinizdən pis fikirlər keçirsə, sadəcə, hiss etdiklərinizi vərəqə köçürün. Deyirlər ki, bu, sakitləşdirir. 12. Əgər zökəm olmusunuzsa, çarpayının yanına qabığı təmizlənmiş soğan qoyun. 13. Əgər boğazınızı nə isə qıdıqlayırsa, qulağın içini qaşıyın. 14. Boğaz ağrısını sakitləşdirmək üçün marşmellou zefiri yeyin. 15. Ürəyin qan dövranını sürətləndirmək üçün baş barmağınıza üfürün. 16. Əgər gözləriniz dolubsa və hər kəsin içində ağlamaq istəmirsinizsə, gözlərinizi geniş açıb tavana baxın və qırpmayın.

## Elan

Qafarlı Aynur Afət qızının adına verilmiş, M.Cəlal küçəsi, 145 saylı evin, 76 saylı mənzilinin №059395 qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şirəliyeva Saçlı Əhməd qızınını adına məxsus, Bakı şəhəri, Xətai rayonu, Sarayev küçəsi, ev 13 "a", mənzil 28 ünvanının qeydiyyat vəsiqəsi (№073784) itdiyi üçün etibarsız sayılır.

"SKS" MTK-ya məxsus, Bakı şəhəri, Nəsimi rayonu, Füzuli küçəsi 45 ünvanındakı qeyri-yaşayış binasının çıxarışı itdiyi üçün etibarsız sayılır (5 saylı DNK-nın 17.05.2008-ci il tarixli 4ə - 2-269 reyestr nömrəli alqı-satqı müqaviləsinə əsasən 27.05.2008-ci il tarixində qeydiyyatdan keçib).

Bədəlova Sevda Ziaddin qızınını adına məxsus, Bakı şəhəri, Xətai rayonu, M.Hadi küçəsi, ev 81, mənzil 90 ünvanının çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

Cəbrayılzadə Toğrul Elman oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Məmmədov Fəxrəddin Əhməd oğluna məxsus, Buzovna qəsəbəsi, Pirməmməd küçəsi, ev 19, mənzil 15 ünvanının qeydiyyat vəsiqəsi (seriya ÖM №041988) itdiyi üçün etibarsız sayılır.

Şahbazov Mehman Məhəmməd oğlunun adına məxsus, Tərtər rayonu, Ələsgərli kəndində yerləşən torpaq sahəsinə verilmiş plan və ölçü (A №265067) itdiyi üçün etibarsız sayılır.

Məmmədov Fərhad Yusif oğlunun adına məxsus, Bakı şəhəri, Şüvəlan bağlar massivində yerləşən №2548d/2 bağın №53 orderi itdiyi üçün etibarsız sayılır.

Heydərov Namiq Heydər oğlunun adına məxsus, Bakı şəhəri, Şüvəlan bağlar massivində yerləşən №3560v/2 bağın №48 orderi itdiyi üçün etibarsız sayılır.

Məmmədov Afiq Tofiq oğlunun adına məxsus, Bakı şəhəri, Şüvəlan bağlar massivində yerləşən №2548v/2 bağın №71 orderi itdiyi üçün etibarsız sayılır.

Məmmədova Sevil Səməd qızının adına məxsus, Bakı şəhəri, Şüvəlan bağlar massivində yerləşən №2548q/2 bağın №64 orderi itdiyi üçün etibarsız sayılır.

Səmədova Nazilə Əhməd qızının adına məxsus, Bakı şəhəri, Mərdəkan bağlar massivində yerləşən №957v/1 bağın №21 orderi itdiyi üçün etibarsız sayılır.





**Qoç** - İdeyalarınızı unutmayın. Onlardan birindən yararlana bilərsiniz. Bəzi ideyaları reallaşdıranda tələsməyin. Çətin məsələni çözmək gərəkdirsə, problemlərin həllinə yaradıcı yanaşın.



**Buğa** - Mövqelərinizi möhkəmləndirmək, irəliləmək, yeni zirvələr fəth etmək üçün yaxşı zamandır. Ətrafınızdakı insanların dediklərini qulaqardına vurmayın. Münasibətlər qarşılıqlı saygı və hörmət əsasında olmalıdır.



**Əkizlər** - İnformasiya texnologiyaları və kommunikasiyalarla məşğul olursunuzsa, uğurlu zamandır. Məsləhətlərə qulaq asın, sizə dəyər verən insanların önəmini bilin. Ətrafınızdakı insanlardan biri ilə dil tapa bilərsiniz.



**Xərçəng** - Vaxtınızdan rasional istifadə etmək üçün böyük problemləri kiçik çətinliklərə bölmək və onları mərhələlərlə həll etmək olar. Belədə ən mürəkkəb, məsuliyyətli işin öhdəsindən gələ bilərsiniz.



**Şir** - Gün problemlər və anlaşılmaz situasiyalar vəd edir. Hər şeyə rəğmən, əhvalınızı korlamayın, bədbinliyə qapılmayın. İşlərinizin nəticəsindən narazı qalmağınız, yaxın gələcəklə bağlı perspektivləri pis görməyiniz istisna deyil.



**Qız** - Kiçik işlərə və rutin məsələlərə həddən artıq vaxt ayırmayın. Belədə önəmli məqamlardan biri nəzərdən qaça bilər. Əvvəlcə əsas problemlərin həllinə başlayın. Kiçik işlərin çözümünü isə sonraya saxlamaq olar.



**Tərəzi** - Dostların zarafatlarından inciməyin. Yaxınlarınızdan biri sizinlə xoş zarafat edəcək. Münasibətləri korlamayın, yumor hissinə malik insan olduğunuzu göstərin. Anlaşılmazlıq baş verə bilər.



**Əqrəb** - Üçüncü şəxs barədə söhbətə sizi də cəlb etmək istəyirlərsə, belə müzakirədən uzaq durun. İşlərin öhdəsindən təkbaşına gələ bilərsiniz. Anlayacaqsınız ki, ən çətin problemləri çözmək iqtidarındasınız.



**Oxatan** - Günün ilk yarısında aparılan danışıqlar və müzakirələr pis alınmayacaq. Mövqeyinizin səbatlı və dürüst olduğuna qarşı tərəfi inandırın. Asanlıqla geri çəkilməyin. Amma bununla belə, sərt və kobud olmayın.



**Oğlaq** - Günün ilk yarısından etibarən hadisələrin məcrasında ciddi dəyişikliklər olacaq. Proseslərə süni təkan verməyin, düşünülməmiş addımlar atmayın. Gündəlik, rutin qayğıların həllini ertələməyin.



**Dolça** - Münaqişə və mübahisələri həll edə bilərsiniz. Dartışmalar uzun, çək-çevirli olsa belə, çıxış yolunu arayın. Başqasının fikirlərinə saygı ilə yanaşın. Maraqların qarşılıqlı təminatı üçün gərəkli addımları atın.



**Balıqlar** - Günün ilk yarısından intensiv işləməyə çalışın. Məhsuldarlıq uğur vəd edir. Bəzi problemləri həll etmək asan olmasa da, situasiya sizin fəaliyyətinizə mənfi təsir etməməlidir.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Qadının boğazından diri zəli çıxardılar

**65 yaşlı qadın boğazında ağrı, qanlı öskürək şikayətləri ilə xəstəxanaya müraciət edib. "Medicina.az" bildirir ki, qadın iddia edib ki, boğazında nəsə hərəkət edir.**

Quyçjou əyalət xəstəxanasında həkimlər bronxoskopiya ilə xəstənin nəfəs borusunda 2 sm ölçüdə diri zəli aşkarlayıblar. Həkimlər paraziti dondurub, ehtiyatla çıxarıblar. Yaranın yeri isə müalicə edilib. Parazitin bədəndən çıxarılması prosesi isə cəmi 6 dəqiqə çəkib. Təsərüfatda işləyən qadın içdiyi suya elə də fikir verməyini bildirib: "Hardan gəldi su içirəm.

Ola bilsin içdiyim hansısa suyun içində zəli olub". Həkimlərin sözlərinə görə, qadının boğazına möhkəm yapışmış zəli ondan faydalana bilərdi. Müəyyən müddət keçikdən sonra traxeyanın damarlarından qan sovuran diri zəlini ordan çıxarmaq mümkün olmayacaqdı. Vaxtında müdaxilə olmasaydı sinuslara hücum edə bilərdi.bu isə facie ilə nəticələnə bilərdi.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.